QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 031 (6231) 18 fevral 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Sergey Lavrov və Ceyhun Bayramov arasında telefon danışığı olub




Rusiyanın Xarici İşlər Naziri Sergey Lavrov və Azərbaycanın Xarici İşlər Naziri Ceyhun Bayramov arasında telefon danışığı baş tutub. SİA-nın Rusiya Xarici İşlər Nazirliyinə istinadən məlumatına görə, nazirlər Rusiya, Azərbaycan və Ermənistan...

Bax 3

## "Kommersant": Ağdamın bugünkü görkəmi Qarabağın incisinə oxşamır



"Qarabağ Azərbaycandır" sözləri bu gün Azərbaycanda ən geniş yayılmış ifadədir. Heydər Əliyev Beynəlxalq Aeroportunun binasındakı böyük ekranlarda yazılıb: "Qarabağ Azərbaycandır". Şəhərin küçələrindəki reklam şitlərində deyilir: "Qarabağ Azərbaycandır". Yollarda şütüyən reys avtobuslarının marşrut tablolarında yazılıb: "Qarabağ...

Bax 4

# İşğaldan azad olunmuş ərazilərdə inkişafın yeni nümunəsi

## İlham Əliyev: "Qarabağda cənnət yaradacağıq"



Bax 2

## Ermənilər Türkiyəni niyə tərk edir?



Türkiyədə yaşayan Ermənistan vətəndaşlarının sayı açıqlanıb. Yeni rəqəmlərə görə, sayda 30 faiz azalma var. Bu barədə Türkiyə Statistika Komitəsi məlumat yayıb. Belə ki, 2019-cu illə...

Bax 3

## Serj Sarqsyanın Aprel məğlubiyyəti: 44 günlük zəfər yolunun başlanğıc nöqtəsi



2016-cı ilin Aprel müharibəsində Azərbaycan Ordusunun Ermənistanın silahlı təxribatlarına qarşı başlatdığı əks-hücum əməliyyatları zamanı əldə etdiyi zəfərinin ardınca Ermənistanda baş verən proseslər nəticə etibarı ilə hakimiyyətin dəyişilməsinə...

Bax 6

## AXC-Müsavat cütlüyü Qarabağı ermənilərə belə təhvil verdi!



Müzəffər Ali Baş Komandanımız, Azərbaycan xalqının qalib Sərkərdəsi, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə səfəri zamanı çıxışlarında daim xatırladır ki, məhz AXC-Müsavat mənfur cütlüyü hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, iqtidarı ələ...

Bax 13

### Qadına qarşı zor tətbiq edən polis işdən qovuldu




Bax 9

### Azərbaycanda ən bahalı 10 avtomobil



Bax 10

### "Sosial şəbəkə platformaları çərçivələri aşır"



Bax 12

# İşğaldan azad olunmuş ərazilərdə inkişafın yeni nümunəsi

## *İlham Əliyev: "Qarabağda cənnət yaradacağıq"*

**Ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq dövlətimiz bu istiqamətdə genişmiqyaslı işlər görür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.**



### "Azərbaycan Qarabağ torpaqlarına yenidən həyat qaytaracaq"

Prezident İlham Əliyevin, Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın, Leyla xanım Əliyevanın fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etməsi, bir sıra layihələrin təməlinin qoyulması, açılışının edilməsi dövlətimizin başçısının "Qarabağda cənnət yaradacağıq" vədinin ilkin akkordlarıdır. Qələbəmihdən 100 gün keçməsinə baxmayaraq qısa müddət ərzində böyük işlərin görüldüyü göz önündədir: Füzuli-Şuşa yolunun, Füzuli rayonunda hava limanının təməllərinin qoyulmasından sonra Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin də təməlini qoyulması, Güləbird Su Elektrik Stansiyasının açılışının baş tutması, həmçinin, Zəngilan rayonunun Üçüncü Ağalı kəndində "ağıllı kənd" layihəsinin icra olunması ilə bütövlükdə azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi, bir sözlə işğaldan azad edilən torpaqlarda bütün infrastrukturun, ümumilikdə rayon və şəhərlərimizin modern əsaslarda yenidən qurulması yaxın gələcəkdə Qarabağın cənnətə çevriləcəyindən xəbər verir. Ölkə başçısının da dediyi kimi, Azərbaycan Qarabağ torpaqlarına yenidən həyat qaytaracaq

Ümumiyyətlə, Prezident İlham Əliyev cənabları çıxışlarında azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. Hətta bu istiqamətdə İtaliya təcrübəsindən yararlanacağımız da bəllidir. Bir sıra İtaliya şirkətləri artıq bərpa işlərində aktiv iştirak üçün əməkdaşlığa başlayıblar. Erməni işğalından azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması əsas prioritetlər sırasındadır. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

### Strateji əhəmiyyətli Horadiz-Ağbənd dəmir yolu

Müharibədən sonra nəqliyyat yollarının yenidən qurulması prioritet məsələdir. Bu mənada azad olunan ərazilərdə avtomobil yolları ilə paralel olaraq dəmir yolu infrastrukturunun bərpası və ya yenidən qurulması vacib idi. Məhz Prezident İlham Əliyevin fevralın 14-də Füzulidə Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyması bu istiqamətdə atılmış önəmli addımlardan biri oldu. Ümumi uzunluğu 100 kilometr olan dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu yaxın gələcəkdə Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişini və yüklərin daşınmasını xeyli asanlaşdıracaq. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bu layihə uzun fasilədən sonra ölkəmizi onun ayrılmaz hissəsi olan Naxçıvanla dəmir yolu ilə bağlayacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz təmin olunacaq. Dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq ki, bununla da Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq. Sözügedən nəqliyyat dəhlizi yalnız Azərbaycanı Naxçıvanla, Türkiyə ilə birləşdirməyəcək, eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti də açıla bilər. Bu xətt isə yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı da qurulacaq. Bundan başqa İran ilə Ermənistan və Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı reallaşacaq. Yəni, region ölkələri bundan ancaq xeyir görəcəklər. Təbii ki, bütün bunlar ölkəmizin geosiyasi əhəmiyyətini, iqtisadi gücünü artıran amillərdir. Proqnozlaşdırıldığı kimi, Azərbaycan etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcək, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün geniş zəmin yaranacaq.

### Qarabağın təbiəti yenidən canlanır

Prezidentin Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə baş çəkməsi də səfərin diqqət çəkən məqamlarından oldu. Azərbaycanın digər işğal altında saxlanılmış əraziləri kimi Bəsitçay qoruğunda da ekoloji terror törədilib. Təəssüf doğuran məqam odur ki, erməni vandalları qoruğun meşəlik ərazisinin yarısını məhv ediblər, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub. Əraziyə gələn Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkiblər və Bəsitçaya balıq buraxıblar.

Xatırladaq ki, Bəsitçay qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu və bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra isə düşmən çinarların böyük hissəsini kəsib.

"Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi. Biz bu qoruğu bərpa edəcəyik",-deyən dövlət başçısı onu da söyləyib ki, əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi: "Ancaq hər halda öz borcumuzu yerinə yetirdik. Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir", - deyə ölkə başçısı bildirib.

### "Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək"

Prezident İlham Əliyev bölgəyə səfəri çərçivəsində Cəbrayılın Soltanlı kəndinə yola düşərək işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlərlə də maraqlanıb. Prezident tapşırıq verib ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə suyun verilməsi təmin edilsin. Nəticədə 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar.

Qeyd edilib ki, qısa müddət ərzində bütün imkanlar səfərbər edilərək 7 min hektar torpaqda əkin işləri aparılıb. Builki mövsümdə isə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq: "Azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək".

Göründüyü kimi, Qarabağ bölgəsi Azərbaycanın iqtisadiyyatına böyük töhfələr verəcək. Bütün çətinliklərə, beynəlxalq ədalətsizliyə mətinliklə sinə gərən Azərbaycan dövləti inamla torpaqlarını azad etdiyi kimi, həm də erməni vandallığının qurbanı olan bütün şəhər və kəndlərini yenidən quracaq və dirçəldəcək. İşğaldan azad edilmiş rayonlarımıza, bütün Qarabağa yeni nəfəs veriləcək, bu torpaqlarda həyat qaynayacaq, dünya Azərbaycan xalqının quruculuq əzminin şahidi olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Misir nəşri Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə növbəti səfərindən yazıb



Misirin "Əl Masr Əl Yom" nəşrində Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərindən bəhs edən məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə dövlətimizin başçısının Azərbaycan Ordusunun döyüş meydanında düşmənə qalib gəlməsi, tarixi ədaləti bərpa edərək torpaqlarımızı azad etməsi barədə fikirləri yer alıb, Laçın rayonunun Güləbird kəndində Azərbaycan bayrağını qaldırması qeyd olunub. Bildirilib ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı Ordumuzun Qələbəsini tarixi Zəfər adlandırıb və bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdiyini deyib. Məqalədə Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri haqqında fikirlərinə geniş yer verilib, habelə Laçın rayonunda "Güləbird" Su Elektrik Stansiyasının açılışını etdiyi oxucuların diqqətinə çatdırılıb.

# Sergey Lavrov və Ceyhun Bayramov arasında telefon danışığı olub




Rusiyanın Xarici İşlər Naziri Sergey Lavrov və Azərbaycanın Xarici İşlər Naziri Ceyhun Bayramov arasında telefon danışığı baş tutub. SİA-nın Rusiya Xarici İşlər Nazirliyinə istinadən məlumatına görə, nazirlər Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 11 yanvar 2021-ci ildə Moskvada əldə etdikləri razılaşmaların həyata keçirilməsini, həmçinin ikitərəfli və beynəlxalq gündəliyin bir sıra aktual məsələlərini müzakirə ediblər.

# Zakir Həsənov Özbəkistanın ölkəmizdəki səfiri ilə görüşüb



Fevralın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Özbəkistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov ilə görüşüb. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, səfiri salamlayan Müdafiə naziri bildirib ki, ölkələrimiz arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlıq dostluq və qardaşlıq münasibətləri üzərində qurulub. Nazir qeyd edib ki, bütün sahələrdə olduğu kimi müdafiə sahəsində də əlaqələrimiz ölkələrimizin maraqlarına uyğun uğurla inkişaf edir. General-polkovnik Z.Həsənov səfirə ordu quruculuğu sahəsində keçirilən islahatlar və əldə olunan nailiyyətlər barədə də məlumat verib.

Diplomat öz növbəsində Vətən müharibəsində qazanılan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhidlərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib. Səfir qeyd edib ki, Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır və hər zaman ölkəmizə bütün məsələlərdə dəstək göstərib.

Özbəkistanın Azərbaycan ilə birgə hərbi təlim və treninqlərin keçirilməsində maraqlı olduğunu qeyd edən səfir Özbəkistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Azərbaycanın hərbi təhsil müəssisələrində təcrübə mübadiləsinin aparılmasının vacibliyini də vurğulayıb. Görüşdə müdafiə və hərbi təhsil sahəsində birgə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri ilə bağlı bir sıra digər məsələlər müzakirə olunub.

# Ermənilər Türkiyəni niyə tərk edir?

Türkiyədə yaşayan Ermənistan vətəndaşlarının sayı açıqlanıb. Yeni rəqəmlərə görə, sayda 30 faiz azalma var. Bu barədə Türkiyə Statistika Komitəsi məlumat yayıb. Belə ki, 2019-cu illə müqayisədə 2020-ci ildə ölkədə yaşayan Ermənistan vətəndaşlarının sayı 1257 nəfər olub. Bu isə 30 faiz azdır. 2019-cu ildə Türkiyədə 1760 Ermənistan vətəndaşı yaşayıb.



# Baş nazir Əli Əsədov Türkiyəyə gedir



Fevralın 19-da Türkiyədə Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 9-cu iclası keçiriləcək. SİA-nın məlumatına görə, iclasda baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edəcək. Səfər çərçivəsində Ə.Əsədov Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəcək. Komissiyanın iclası çərçivəsində Əli Əsədov və Türkiyənin vitse-prezidenti Fuat Oktay hər iki ölkədən 150 özəl sektor nümayəndəsinin qatılacağı Türkiyə-Azərbaycan İşgüzar Forumunun ümumi iclasında iştirak edəcəklər.

Türkiyə mətbuatının məlumatına əsasən, ölkələr arasında dövlət və özəl sektorda ümumilikdə 100 milyon dollardan çox ticarət sazişlərinin imzalanması gözlənilir.

# "Wall Street Journal": Azərbaycanlılar birinci Qarabağ müharibəsindən sonra dağıdılmış şəhərlərə qayıtmaq istəyirlər

Beynəlxalq KİV-lərdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində münaqişədən sonrakı dövrün və indi doğma diyarlarını ziyarət edə biləcək məcburi köçkünlərlə bağlı hadisələrin işıqlandırılması davam edir. 30 ildən çox bundan əvvəl Ermənistanla birinci müharibə nəticəsində 1 milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, lakin onların öz evlərinə qayıtması çətinliklərlə və gərgin emosiyalarla bağlıdır.




AZƏRTAC xəbər verir ki, bu fikirlər "Wall Street Journal" nəşrinin müxbiri M.Simmonsun həmin jurnalda dərc edilmiş məqaləsindən götürülüb. Simmons yazır: "Artıq minlərlə azərbaycanlı qaçqın və məcburi köçkün erməni silahlı qüvvələri tərəfindən 30 illik işğaldan sonra azad edilmiş ərazilərə qayıda biləcək, lakin hələlik həmin rayonlarda yaşamaq üçün zəruri infrastruktur yoxdur. Əslən Ağdamdan olan 74 yaşlı Sayalı Paşayevanı və digər məcburi köçkünləri narahat edən odur ki, şəhərlər və kəndlər xarabalığa çevrilib, orada yaşamaq və işləmək üçün hələ şərait yoxdur.

Sayalı Paşayeva əhalisinin sayı 40 min nəfər olmuş Ağdama birinci səfəri zamanı deyib: "Allaha şükür edirəm ki, mənim öz yurdumda ölməyim üçün oraya qayıtmağıma imkan verib". Sayalı Paşayeva, onun oğlu və qızı Ağdama gələrkən qırmızı rəngli bir xalçanı oradakı məscidə hədiyyə ediblər. Bu məscid Ağdamda salamat qalmış yeganə binadır. Şəhərdəki digər tikililər tamamilə dağıdılıb. Ağdamın işğalından Paşayevlər ailəsi ikimərtəbəli evdə yaşayırdı. Münaqişə nəticəsində bu ailə uzun illər boyu çadır şəhərciyində yaşamalı olub. Ötən ilin payızında Azərbaycan Ordusu işğalçı erməni qüvvələrinə qarşı əks-hücum nəticəsində Ağdamı və digər rayonları nəzarət altına götürməyə müvəffəq olub.

İşğaldan azad edilmiş rayonlarda zəruri yenidənqurma işlərinin miqyası çox böyükdür. Azərbaycan Parlamentində İqtisadi planlaşdırma və biznes komitəsinin sədri Tahir Mirkişilinin sözlərinə görə, 1990-cı illərdə Ermənistan tərəfindən zəbt edilmiş rayonlarda 150 mindən çox ev, 9 minə qədər ictimai bina, o cümlədən 700 məktəb dağıdılıb.

Torpaqların minalanması və partlamamış döyüş sursatları işğaldan azad olunmuş ərazilərdə həyat üçün yenə təhlükə yaradır. Dəmiryol və aeroport dağıdıldığına görə, işğaldan azad olunmuş ərazilərə yeganə yol avtomobil yoludur. Bu da öz növbəsində kommunal xidmətlərin və dağıdılmış şəhərlərin bərpasını çətinləşdirir. Buna baxmayaraq, 1990-cı illərin əvvəlində bu bölgəni tərk etməyə məcbur olmuş azərbaycanlılar arasında nostalgiya və vətənpərvərlik hissləri dərin kök salıb. Sayalı Paşayevanın oğlu deyib: "Biz Ağdamda olduğumuz dövrdə milyoner idik. Qaçqın vəziyyətinə düşmək bizim üçün təhqir idi".

Jurnalist daha sonra əslən Füzulidən olan ssenarist Elxan Xanəlizadə barədə söhbət açır. Ermənilər Elxanın yaşadığı kəndi tutanda onun 13 yaşı vardı. Elxanın ailəsinin də 8 otaqdan ibarət ikimərtəbəli evi vardı. Elxan o faciəli günləri indi də xatırlayır: 60 kilometr yolu ayaqyalın getməli olmuşdu, ayaqları qan içində idi. Ailənin hər hansı qiymətli əşyalarını götürməyə vaxt yox idi.

Məqalədə münaqişənin tarixindən, ermənilərin Dağlıq Qarabağ regionunu ilhaq etməyə cəhd göstərməsindən də bəhs edilir, hərçənd BMT bütün bu müddətdə Azərbaycanın ərazi bütövlüyünü tanımaqda davam edib.

Simmons yazır ki, Azərbaycan hökuməti Dağlıq Qarabağı və ona bitişik rayonları geri qaytarmağı vəd edərkən əhalinin dəstəyinə güvənirdi. Azərbaycan hökumətinin məlumatına görə, 800 minə yaxın azərbaycanlı öz əzəli torpaqlarına qayıtmaq arzusunda olduğunu bildirib. Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyev bildirib ki, bu fakt qürur doğurur. Müəllif yazır: "Bəzi müstəqil iqtisadçıların hesablamalarına görə, işğaldan azad edilmiş ərazilərin bərpasına çəkiləcək xərclər Azərbaycanın ildə 15 milyard dollara yaxın olan illik büdcəsindən çox ola bilər. Azərbaycan hökuməti Qarabağda yeni infrastruktur yaradılması üçün indiyə qədər bu məbləğin təqribən 10 faizini ayırıb.

Rəsmi şəxslər də ümid edirlər ki, işğaldan azad olunmuş rayonlarda yenidənqurma proqramının həyata keçirilməsinə özəl və xarici investisiyalar da kömək edəcək. Türkiyə, İran, Macarıstan, İtaliya və Böyük Britaniya hökumətləri bu regionun bərpasına töhfə verməyə, o cümlədən sənayeyə sərmayə qoymağa və ərazilərin minalardan təmizlənməsinə kömək etməyə hazır olduqlarını bildiriblər. İşğaldan azad edilmiş bəzi rayonlarda bərpa işləri artıq başlanıb. Füzuli rayonunda yol boyunca vurulmuş yeni yol nişanlarında kəndlərin adları göstərilib. Hazırda orada aeroport tikilir. Bu rayondan olan azərbaycanlıların çoxu oraya qayıtmaq imkanını nəzərdən keçirir".

# “Kommersant”: Ağdamın bugünkü görkəmi Qarabağın incisinə oxşamır

**“Qarabağ Azərbaycandır” sözləri bu gün Azərbaycanda ən geniş yayılmış ifadədir. Heydər Əliyev Beynəlxalq Aeroportunun binasındakı böyük ekranlarda yazılıb: “Qarabağ Azərbaycandır”. Şəhərin küçələrindəki reklam şitlərində deyilir: “Qarabağ Azərbaycandır”. Yollarda şütüyən reys avtobuslarının marşrut tablolarında yazılıb: “Qarabağ Azərbaycandır”.**

Rusiyada nəşr edilən “Kommersant” qəzetində Aleksey Naumovun “Qaliblərin müharibədən sonrakı şoku. Azərbaycan müasir tarixdə ən iri hərbi qələbəyə öyrəşməyə çalışır” sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC həmin məqaləni təqdim edir.

X X X

Qarabağ həmişə Azərbaycanın ərazisi olub. Təkcə hüquqi mənada deyil, rəmzi mənada da belə olub: yerli mətbəələrdə mütəmadi olaraq müvafiq xəritələr çap edilib, “Şuşa” və ya “Ağdam” sözləri yazılmış yol nişanları uzun illər boyu öz yerində qalıb və səylə təzələnib.

Vəziyyət barədə əcnəbilərə də məlumat verilirdi: məsələn, Bakı bank terminallarının ekranlarında respublika ərazisinin 20 faizinin işğal edilməsi barədə ingilis dilində məlumat verilirdi. Bakının xarici aləmlə əlaqələri də əsasən Qarabağ problemi və “Dağlıq Qarabağ ermənilərı”nin nəzarəti altında olan rayonları Azərbaycana qaytarmağa çağıran BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi üzərində qurulmuşdu.

Böyük mağazaların vitrinlərində, küçələrdə şaurma satılan balaca köşklərin pəncərələri arxasında, təmtəraqlı şirkətlərin binalarında da bu yaxınlarda başa çatmış müharibənin və bu müharibədə müzəffər qələbənin izlərini - Azərbaycan torpağı uğrunda döyüşə yola düşən əsgərlərin hərbi formada çəkilmiş fotoşəkillərini görmək olar.

Ölkənin yerli sakinlərinin şəkilləri ilə yanaşı sarışın saçlı oğlanların şəkilləri də tez-tez rast gəlir. “Kommersant” nəşrinin şərhçisi “Azərbaycan İctimai Televiziyası”nın binasında fəxri stenddə bir nəfərin fotoşəklini göstərərək dedi: “Bu, Dmitri Markovdur”. Başqa etnik qrupların nümayəndələrinin yerli KİV-lərdə xüsusi fərqləndirilməsini demək düz olmazdı, lakin belə qonşuluq ölkədə bəyan edilmiş beynəlmiləliyin ən yaxşı təsdiqidir.

Yaxın vaxtlarda baş vermiş hadisələrə daha bir sübut - küçələrdə və balkonlarda çoxsaylı bayraqlar asılmasıdır. Bu ölkədə artıq bir neçə ildir ki, Azərbaycan bayraqları asılır, amma Türkiyə bayraqlarının çoxu Qarabağ müharibəsində Türkiyənin qətiyyətli dəstəyindən sonra görünməyə başlayıb. Bəzən bu iki bayrağa Pakistanın bayrağını da əlavə edirlər və üzərində aypara şəkli çəkilmiş üç bayraq bir növ siyasi triptix təşkil edir. “Kommersant” qəzetinin apardığı rəy sorğusunda iştirak etmiş Bakı sakinləri xatırlayırlar ki, Rusiyanın fəal iştirakı ilə Qarabağda vəziyyət nizamlanandan sonra postsovet tarixində ilk dəfə Bakı küçələrində Rusiya Federasiyasının bayraqları da görünüb.

Müharibə artıq keçmişdə qalıb: Ermənistan tərəfinin “Dağlıq Qarabağın təhlükəsizlik kəməri” adlandırdığı yeddi Azərbaycan rayonu Bakının nəzarəti altına qaytarılıb. Bu quru rəqəmlərin arxasında 7,5 min kvadratkilometr ərazi dayanır. Vaxtilə həmin ərazilərdən qaçmağa məcbur olmuş 600 mindən çox insan sonradan ölkənin digər regionlarında məskunlaşıb.

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanov “Kommersant” nəşrinin müxbirinə bildirib ki, ölkə rəhbərliyi torpaqların yenidən inteqrasiya edilməsi üçün genişmiqyaslı işə başlayıb. “Prezident Administrasiyasının rəhbəri başda olmaqla 17 işçi qrupdan ibarət bütöv bir qərargah işləyir”, - deyən cənab İmanovun sözlərinə görə bu, çox mürəkkəb məsələdir, çünki ərazinin




xeyli hissəsi minalanıb. Yolları nisbətən qısa müddətdə təmizləmək mümkündür, amma bütün torpaqların, o cümlədən əkin yerlərinin minalardan təmizlənməsi üçün illərlə vaxt lazım gələ bilər. Müharibədən əvvəl yerli əhalinin 60 faizinin əkinçiliklə məşğul olduğunu nəzərə alsaq, bu, son dərəcə əhəmiyyətli məsələdir.

Azərbaycan rəhbərliyi ərazilərin bərpası zamanı məhz repatriasiyaya, yəni müharibəyə qədər orada yaşamış insanların və onların övladlarının bu torpaqlara qaytarılmasına üstünlük verməyi qərara alıb. Nazim İmanov bu fikri dəqiqləşdirərək deyib: “Biz oraya 1 milyon insanın qayıdacağını nəzərdə tuturuq. Yaşayış məntəqələri iriləşdiriləcək, iqtisadiyyatın informasiya texnologiyaları kimi müasir sektorları inkişaf etdiriləcək”.

Onu da qeyd etmək lazımdır ki, cənab İmanov işğal altında olan ərazilərin iqtisadiyyatının bərpası məsələsini İkinci Qarabağ müharibəsindən xeyli əvvəl öyrənib və bu mövzuda kitab yazıb. Müzəffər Azərbaycan Ordusunun qələbəsindən sonra N.İmanovun ekspertizası əvvəllər görünməmiş dərəcədə əhəmiyyətli olub. Onun hesablamalarına görə, azad olunmuş torpaqların bərpası üçün 10 il ərzində zəruri investisiyaların həcmi 60 milyard dollara çata bilər. Hazırda Azərbaycanın ümumi daxili məhsulunun həcminin təqribən 48 milyard dollar olduğunu nəzərə alsaq, bu, fantastik məbləğdir. İqtisadçı alim deyib: “Bu məbləğin yalnız dövlət investisiyası olması zəruri deyil. Oraya ayrı-ayrı fiziki şəxslər də, Azərbaycana dost olan Türkiyə və Rusiya kimi dövlətlər də sərmayə qoya bilərlər”.

Rəsmi hakimiyyət orqanları onların qarşısına qoyulmuş iqtisadi məsələləri müzakirə edərkən daha təmkinli mövqe tuturlar. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov rusiyalı jurnalistlərlə söhbətində deyib: “2021-ci ilin büdcəsində bu məqsədlə təqribən 2,2 milyard manat və ya təqribən 1,3 milyard dollar nəzərdə tutulub”. Nazirin sözlərinə görə, Azərbaycanın ehtiyatları sosial ödənişləri və ya digər mühüm dövlət xərclərini azaltmadan reinteqrasiya məsələsini səmərəli həll etməyə imkan verir.

Cənab Cabbarov qeyd edib ki, Azərbaycanın hakimiyyət orqanları işğaldan azad olunmuş əraziləri fəal inkişaf etdirmək, dağ-mədən sənayesi, kənd təsərrüfatı, turizm və yükdaşımalar kimi sahələr üzərində diqqəti cəmləşdirməklə özəl investisiyaları cəlb etmək niyyətindədir. Nazir belə bir ideya da səsləndirib ki, normal iqtisadi fəaliyyətin bərpası regiondakı bütün dövlətlərin, o cümlədən Ermənistanın da xeyrinə olar.

Ümumiyyətlə, “Kommersant” nəşrinin Bakıda apardığı müsahibələrin iştirakçıları ümumi fayda və qarşılıqlı mənfəət ideyası barədə tez-tez danışırdılar. Özü də bu ideya həm iqtisadiyyata - regionun normal fəaliyyətinin bərpasına, həm də siyasətə aiddir.

Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov deyib: “Azərbaycan rəhbərliyinin həm müharibə dövründə, həm də üçtərəfli Bəyanatın razılaşdırılması prosesində fəaliyyəti bir daha təsdiq etdi ki, əvvələn, Bakı qərarlar qəbul edilməsində müstəqildir və ikincisi, məsuliyyətli və hərəkətləri proqnozlaşdırıla bilən tərəfdaşdır”. O vurğulayıb ki, Bakı beynəlxalq hüququn, regional tərəfdaşların mənafelərinin nəzərə alınmasının tərəfdarıdır.

Diplomat daha sonra deyib: “Məhz Prezident İlham Əliyevin etibarlı və ölçülüb-biçilmiş xarici siyasət kursunun sayəsində Azərbaycan bu müharibədən sonra mühüm geosiyasi aktorların, ilk növbədə Rusiyanın və Türkiyənin regional əməkdaşlığı üçün unikal məkana çevrilir. Rusiya-Türkiyə birgə monitorinq mərkəzinin uğurlu fəaliyyətə başlaması bu fikri əyani şəkildə təsdiqləyir. Bu mərkəz Qarabağda uzunmüddətli sülhün mühüm elementi olmaqla bərabər, həm də daha geniş geosiyasi kontekstdə etimad amilidir”.

Nəşrin müsahibləri vurğulayıblar ki, Bakı Rusiya və Türkiyə ilə üçtərəfli qarşılıqlı fəaliyyətdə tərəfdaş rolunu yüksək qiymətləndirir və bu, heç kəsdən asılı vəziyyətə düşmədən, öz suverenliyini qurban vermədən regiondakı iki güclü aktor ilə uğurlu iş qurmağa imkan verir. Bundan əlavə, onlar qeyd ediblər ki, Suriya və ya Liviya barədə qarşılıqlı fəaliyyət üçün səciyyəvi olan rəqabət, qarşıdurma kimi aspektlər Moskva ilə Ankaranın qarşılıqlı fəaliyyətində “Azərbaycan keysi”nə xas deyil.

Bakıdan Tərtərə avtomobillə getmək üçün təqribən 4 saat vaxt lazımdır. Vaxtilə cəbhəyanı şəhər sayılan Tərtərin mərkəzi küçəsi göz oxşayır, lakin zahirən cəlbedici binaların demək olar ki, hər birinin zirzəmisində bomba sığınacaqları, sadə çarpayılar, taxta stullar, naqillərdən asılmış elektrik lampaları diqqəti cəlb edir. Yerli administrasiya binasının girəcəyində bütün şəhərdən toplanmış raket qırıntıları yığılıb. Müharibə dövründə döyüş sursatlarını fərqləndirməyi öyrənmiş yerli sakinlər deyirlər: “Balaca raketlər “Qrad”, böyük raketlər “Smerç”dir”.

Şəhərin hakimiyyət orqanları burada müharibə muzeyi yaratmağa hazırlaşır. Həmin muzey üçün rayondan gətirilmiş birinci eksponat - üzərində partlamamış “Smerç” raketinin səliqə ilə yerləşdirildiyi taxta stol artıq hazırdır. Müharibənin bu əyani sübutunun gətirildiyi Tərtər rayonu da atəşə tutulmaqdan zərər çəkib: Qarabağ qaçqınları üçün tikilmiş evlərin bir qisminin pəncərə çərçivələri çıxarılıb, bəzi yerlərdə bütöv məhəllələr dağıdılıb, divarlarda mərmi qəlpələri qalıb. Məktəblərə də ziyan vurulub: mərmilər məktəb binalarının damlarını dağıdıb, sinif otaqları məhv edilib. Yerli hakimiyyət orqanları təmir işlərinə başlayıblar, yerli sakinlər isə ümid edirlər ki, şəhər daha heç vaxt atəşə tutulmayacaq.

Sakinlər təəccüblə soruşurlar: Bu şəhərdə hərbi hədəflər yox idi, yaxınlıqdakı bütün yüksəkliklərə erməni silahlı qüvvələri nəzarət edirdi, onlar haraya atəş açdıqlarını yaxşı görürdülər, bəs kəndlərə atəş açmaq nəyə lazım idi? Bu suallara cavab verən yoxdur. Ona görə də azərbaycanlılarla ermənilərin tezliklə barışacağının reallığına inam çox zəifdir.

Qarabağın dağlıq və aran hissələrinin sərhədində yerləşən, bir vaxtlar çox zəngin olmuş Ağdam şəhərinə yaxınlaşdıqca bu inam tamam heçə enir. Oraya getmək asan deyil, rayonda mülki hakimiyyət hələ bərpa olunmayıb, polis bizi hərbi əks-kəşfiyyat xidmətinin qayğıkeş əməkdaşlarına təhvil verir. Bizim mikroavtobus hərbi “Niva” avtomobilinin ardınca gedir. Yolsuzluq şəraitinə uyğunlaşdırılmış “Niva” istehkamçılar tərəfindən hələ tədqiq edilməmiş sahələrdən yan keçməklə şütüyür. Bizim avtomobilin salonunda əyləşmiş əsgərin əlində köhnə AKC-74U silahı var.

Bu gün Ağdam antiutopiya filmi üçün çəkilmiş dekorasiyaya, Curiosity marsoxodundan çəkilmiş fotoşəkillərə, Çuryumov - Gerasimenko kometlərinə və daha nələrə oxşayır, amma Qarabağın incisinə, vaxtilə bütün SSRİ-də məşhur olan portveynin vətəninə oxşamır. Şəhərdə salamat qalmış yeganə bina Ağdam məscididir. Ağdamı işğal etmiş ermənilər bu binadan artilleriya zərbələri endirilməsi üçün nişangah kimi istifadə edirdilər. Uçmuş binaların, məsələn Çörək Muzeyinin qalıqları altında bəzən Azərbaycan dilində kiril əlifbası ilə yazılmış pannolar görünür. Belə qalıqların birində “Konstitusiyası” sözünü çətinliklə də olsa oxuya bildik. (Görünür, həmin pannoda 1978-ci il sovet Əsas Qanununun üstünlüklərindən bəhs edilirmiş).

Birinci Qarabağ müharibəsi zamanı Ağdam şəhərinin çox zərər çəkmədiyini, erməni silahlı qüvvələri tərəfindən şəhərin döyüşsüz təhvil verilməsini nəzərə alsaq, buradakı dağıntıların miqyası sarsıdıcı təsir bağışlayır. Binalar dağıdılıb, ağaclar məhv edilib, tarlalar yandırılıb. Şübhə yoxdur ki, Bakı “DQR-in təhlükəsizlik kəməri”ni sivil görkəmə qaytarmaq üçün hələ uzun müddət çalışmalı olacaq.

Hələlik çox cansıxıcı olan bu mənzərədə yeganə sabitlik adacığı Rusiya-Türkiyə monitorinq mərkəzinin ərazisidir. Azərbaycan hakimiyyət orqanları tərəfindən zərgər dəqiqliyi ilə qurulmuş bu ərazi “güzgü” siyasətinə tam müvafiqdir. Şəhərcik hər mənada bərabər olan iki hissəyə bölünüb. Bu bölgü tərəflərin bərabərhüquqlu və eyni dərəcədə yüksək hörmət sahibi olduqlarını göstərir.

Sov.İKP MK-nın Baş katibi Leonid Brejnevin məşhur “Azərbaycan iri addımlarla irəliləyir!” kəlamını bu günə də aid etmək olar.

Qarabağ müharibəsində qələbə qazanmış, regionun nüfuzlu dövlətlərindən biri kimi özünü təsdiq etmiş Bakı həm Rusiyanın, həm Türkiyənin, həm də regiondakı digər dövlətlərin əsas və ən mühüm tərəfdaşı statusunu tam təsdiqləyərək bir növ “Cənubi Qafqazın İsveçrəsi”nə çevrilib. Bu, ardıcıl taktikadır: Bakıda bunu xatırlatmağı xoşlayırlar ki, Rusiyanın və NATO-nun ali rütbəli hərbi məmurlarının görüşləri məhz Azərbaycanın paytaxtında keçirilir. Bu taktika həm diplomatik formada, həm də torpaqların qaytarılması şəklində real səmərə verir.

# “Jewish Press”: Antisemitizmin və neonasizmin populyarlaşdırılması Ermənistanın dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilib

**Ermənistanın paytaxtı Yerevanda “Yaşamaq və unutmamaq” Holokost memorialının ermənilər tərəfindən vandalizmə və təhqirə məruz qalması barədə bu yaxınlarda xəbər yayıldı. Erməni antisemitlər abidə üzərində ivrit dilində olan yazıları pozmuşdular. AZƏRTAC xəbər verir ki, bu barədə nüfuzlu “Jewish Press” informasiya agentliyində israilli siyasi analitik Rahel Avraam yazır.**




Ümumdünya Yəhudi Konqresi antisemit vandalizmi pisləyərək bəyan edib: “Yerevanda (Ermənistan) Holokost memorialının mənfur antisemit qraffiti ilə təhqir edilməsini görmək dəhşətdir”.

Ravvin Zamir İsayev də özünün “Twitter” səhifəsində bu sözləri yazıb: “Biabırçılıq! Yerevanda Holokost qurbanlarına qoyulan abidə növbəti dəfə təhqir edilib. Ermənilər Holokost memorialının təhqir edilməsinə İsrailin Azərbaycana silah satması faktı ilə necə bəraət qazandıra bilərlər? Bu, kimsə abidəni təhqir etmək hüququ verirmi?”

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin və İsraildə Azərbaycan Evinin rəhbəri Arye Qut vurğulayıb ki, faşizm və neonasizm uzun müddət Ermənistanda dövlət ideologiyası olub. O əlavə edib ki, Yerevanda Holokost memorialının vandalizmə məruz qalması birinci dəfə deyil: “Antisemitizmin və neonasizmin populyarlaşdırılması Ermənistanın dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilib. Daha hiddətləndirici fakt odur ki, faşist ideologiyası “njdeizm” adı altında Ermənistanın təhsil müəssisələrinin proqramına daxil edilib və yeni nəsillər bu “dəyərlər” ruhunda tərbiyə edilir”.

Arye Qut qeyd edib ki, beş il bundan əvvəl Ermənistanda nasistlərin əlaltısı Qaregin Njdenin şərəfinə abidə də ucaldılıb. İsrailli ekspert deyib: “Suveren xalq, əlbəttə ki, öz milli qəhrəmanı kimi ürəyi istədiyi, arzuladığı hər kəsin xatirəsini əbədiləşdirmək hüququna malikdir. Lakin Holokost zamanı cinayətlər törədən nasistin bəzi xalqların hörmət və etimad bəslədiyi qəhrəmana çevrilməsini görəndə biz susmamalıyıq. Yəhudi xalqı İkinci Dünya müharibəsi dövründə 20 min erməni legioneri tərəfindən yəhudilərə qarşı törədilən qəddarlıq aktını heç vaxt unutmayacaq. Njdenin başçılıq etdiyi erməni legionunun məqsədi evlərə soxularaq yəhudiləri və eləcə də nasist orduya “yararsız” olan digər insanları məhv etmək idi”.

Faşist erməni legionunun “fəaliyyəti” nəticəsində Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, həmçinin Qərbi Krımın digər rayonları tamamilə yəhudilərdən təmizlənib. İsraildə Azərbaycan Evinin icraçı direktoru deyib: “Buna görə də biz müasir Ermənistanın açıq-aydın faşist və antisemit “xadim”lərin milli qəhrəman dərəcəsinə çatdırılmasına laqeyd və etinasız yanaşmamalıyıq”.

Arye Qut əlavə edib: “Erməni faşisti və antisemitinin xatirəsinin əbədiləşdirilməsi rüsvayçılıq və Holokost xatirəsinə təhqirdir. Mənim babam nasistlər üzündən Ukraynada bütün ailə üzvlərini itirib. Onun sağ qalmasının yeganə səbəbi Sovet Ordusu sıralarında vəhşi nasistlərə qarşı döyüşə getməsi idi. Ailəsini müdafiə etmək lazım gələndə onların yanında deyildi. Erməni vandalizmi şəxsən məndə dözülməz ürək ağrıları əmələ gətirir”.

İsrailin Diaspor Nazirliyinin 2020-ci il üzrə yenicə dərc olunmuş illik hesabatında İkinci Qarabağ müharibəsindən sonra antisemitizmin təhlükəli dərəcədə artması qeyd edilib. Hesabatda deyilir: “Rəsmi hücumlar genişlənərək dini zəmində hücumlara çevrilib, iddia edirlər ki, yəhudi xalqı guya tarixən erməni xalqına qarşı cinayətlər törədib. Qarabağda müharibə ekstremist insidentlərə, antisemitizmin yeni ciddi təzahürlərinə və İsrail Dövləti üzərinə şiddətli hücumlara gətirib çıxarıb”.

Arye Qut vurğulayır: “Erməni silahlı qüvvələrinin Xocalıda törətdikləri vəhşiliklər nəticəsində 613 nəfər öldürülüb, 487 nəfər şikəst edilib. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 150 uşaq bir valideynini itirib. Bundan başqa, 1275 günahsız insan əsir götürülüb, 150 nəfərin sonrakı taleyindən indiyədək xəbər yoxdur. Dinc sakinləri yaxın məsafədən güllələyib, başlarının dərisini soyub və diri-diri yandırıblar. Qadınlar, uşaqlar və qocalar ağlasığmaz işgəncələrə, təhqirlərə və həqarətə məruz qalıblar. Xocalının dinc sakinlərinin məhv edilməsinin yalnız bir “səbəbi” vardı - onlar hamısı azərbaycanlılar idi. Bu, bəşəriyyətə qarşı əsl cinayətdir.

Ermənistanın sabiq prezidenti - 29 il bundan əvvəl Xocalıda törədilən soyqırımı aktının təşkilatçılarından biri olan Serj Sarkisyan britaniyalı jurnalist Tomas de Vaala deyib: “Xocalıdan əvvəl azərbaycanlılar düşünürdülər ki, ermənilər dinc əhaliyə heç vaxt əl qaldıra bilməzlər. Biz buna son qoymalı idik. Biz bu stereotipi qırdıq və nəticəsi belə oldu”.

“Nasist hərbi canilərin, xüsusən də öz cinayətləri ilə öyünənlərin beynəlxalq birlik tərəfindən qəbul edilməsini təsəvvür etmək mümkün deyil. Məgər Xocalı hadisələrinin günahkarları beynəlxalq məhkəməyə cəlb edilməli və faşistlər kimi cəza çəkməli deyilmi?

Azərbaycanda isə əksinə, dini dözümlülük, plüralizm və multikulturalizm rəsmi dövlət siyasətidir. İsrailin Diaspor Nazirliyinin antisemitizm barədə 2020-ci il üçün məruzəsində pandemiyanın dünyanın hər yerində antisemitizmi gücləndirməsinə baxmayaraq, Azərbaycanda son il ərzində heç bir antisemit insidenti baş vermədiyi qeyd olunur. Əksinə, İkinci Qarabağ müharibəsində qazanılan Qələbədən sonra azərbaycanlılar İsrail bayraqlarını əllərində fəxrlə yelləyirdilər”, - deyə ekspert vurğulayır.

Sonda Arye Qut yazır: “Müasir Ermənistanın siyasəti - gec işə düşən bombaya oxşayır: belə ideologiya ilə böyüyən gənclər faşizm və neonasizm şüarlarına müvafiq olaraq yaşamağa davam edəcəklər. Ermənistanın dövlət siyasəti İkinci Dünya müharibəsi zamanı faşizmə qarşı mübarizədə həlak olan milyonlarla insana ifrat dərəcədə hörmətsizlik nümayiş etdirir. Bu gün bu faktdır ki, İsrail Dövlətinə Ermənistan Respublikası kimi tərəfdaş və ya müttəfiq qətiyyən lazım deyil”.

# Səadət Qədirova: Azərbaycan özünün tam dəyərli regional subyekt, Azərbaycan lideri isə dünya miqyaslı siyasi xadim və strateq olduğunu göstərdi

**Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyanın Münhen konfransında görüşündən düz bir il, “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasından isə bir ildən bir qədər çox vaxt keçib.**



Rusiyalı politoloq Səadət Qədirova AZƏRTAC-ın müxbiri ilə söhbətində bu iki diskussiyanın yekunları fonunda Cənubi Qafqazda yaranmış vəziyyət barədə fikirlərini bölüşüb. O deyib: “Münhen konfransı zamanı Nikol Paşinyanın bir neçə dəfə Prezident Əliyevə müraciət edərək onu regionda davamlı sülh yaradılması üçün əməli fəaliyyətə çağırdığını yaxşı xatırlayıram. O deyirdi: “Hesab edirəm ki, bizim davamlı sülhə ehtiyacımız var... Mən Prezident Əliyevə müraciət edirəm, bu vəziyyətdə anlamalıyıq ki, davamlı sülh və sabitlik yaratmaq bizim qarşılıqlı vəzifəmizdir...”

Bu gün görürük ki, bu davamlı sülhü Azərbaycan yaradır - Ali Baş Komandanın rəhbərliyi və öz ordusunun köməyi ilə. Həmin konfrans da daxil olmaqla bütün beynəlxalq məkanlarda haqqında söhbət gedən davamlı sülh budur”. Politoloqun fikrincə, Azərbaycan 30 il ərzində regionu boğan, ticari-iqtisadi əlaqələrin inkişafını ləngidən, bütün səviyyələrdə gərginlik yaradan düyünü kəsib: “Azərbaycana göstərilən ağlasığmaz beynəlxalq təzyiq, beynəlxalq liderlərin, BMT Təhlükəsizlik Şurasının üzvlərinin zəngləri bir daha göstərdi ki, beynəlxalq erməni lobbisi çox güclüdür. Ermənistanın sabiq prezidenti Robert Koçaryan bu yaxınlarda öz müsahibəsində erməni lobbisini “şəbəkə” kimi səciyyələndirib. Onunla razılaşmaya bilmərəm, bütün dünya üzrə erməni lobbi şəbəkəsi münaqişəni uzun müddət dondurmaq üçün əlindən gələni edir, çox böyük məbləğdə pul xərcləyirdi. Ermənistanın özündəki ermənilər, əslində, yalnız öz mənafeləri naminə fəaliyyət göstərən beynəlxalq erməniliyin girovlarına çevrilib. Ermənistan dilənçi günündədir, erməni xalqını aldadırlar”.

Politoloq qeyd edib ki, “Dağlıq Qarabağ Ermənistandır” kimi populist fikirlər təxribat xarakteri daşıyırdı. Şuşada inauqurasiya mərasimi və sülh danışıqlarının dəfələrlə pozulması ona gətirib çıxartdı ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini de-yure və de-fakto təkbaşına həyata keçirdi, öz torpaqlarını azad etdi. Ermənistanın “hərbi qüdrəti” və “erməni əsgərinin məğlubedilməzliyi” barədə bitib-tükənməyən söhbətlər oyuncaq ev kimi puç oldu, bu gün artıq heç kəs belə nağıllara inanmır. Beynəlxalq birlik torpaqların azad edilməsi barədə beynəlxalq sazişlərin həyata keçirilməsinə kömək etməsə də, Azərbaycanın qələbəsini etiraf etməyə məcbur olub.

S.Qədirova deyib: “Bir məqamı qeyd etməyə bilmərəm ki, Rusiya Prezidenti Vladimir Putinin dəfələrlə vurğuladığı kimi, “müharibə Azərbaycan ərazisində gedir və erməni təbliğatının KTMT-ni bu münaqişəyə cəlb etmək üçün bütün cəhdləri uğursuz oldu. Ermənistan Gəncəyə və Bərdəyə vəhşicəsinə raket zərbələri endirib. Azərbaycanı guya gecə vaxtı öz xalqını bombalamaqda təqsirləndirən Ermənistan rəhbərliyinin həyasızlığı vaxtilə Xocalı faciəsinin guya Ayaz Mütəllibovun devrilməsinin nəticəsi olması barədə erməni yalanlarının davamıdır. Yeri gəlmişkən, Nikol Paşinyan da Münhen görüşünün tribunasından çığıra-çığıra bunları deyirdi. Belə ritorika nə sülhə, nə də quruculuğa gətirib çıxara bilərdi”.

Ekspert qeyd edib ki, erməni lobbisi Azərbaycanın beynəlxalq layihələrinə göz dikmişdi. Onlara elə gəlirdi ki, Azərbaycan tammiqyaslı hərbi əməliyyatlar aparmağa risk etməyəcək, amma onlar yanıldılar. Azərbaycan özünün tamdəyərli regional subyekt, Azərbaycan lideri isə dünya miqyaslı siyasi xadim və strateq olduğunu göstərdi”.



## Ceyhun Bayramov İran parlamentinin komissiya sədri ilə görüşüb

17 fevral 2021-ci il tarixində nazir Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İran İslam Respublikası İslam Şura Məclisinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Müctaba Zünnurinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyindən SİA-yaə verilən məlumata görə, nazir Ceyhun Bayramov İran İslam Respublikasının İslam Şura Məclisinin nümayəndə heyətini səmimiyyətlə salamlayaraq, bu səfərinin ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli münasibətlərin inkişafına töhfə verəcəyini bildirib. Nazir, ölkələrimiz arasında mövcud olan tarixi, mədəni, dini bağların ikitərəfli əməkdaşlıq münasibətlərinin əsasını təşkil etdiyini vurğulayıb. İranın hər zaman Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını dəstəklədiyi, xüsusilə də Vətən müharibəsi zamanı İran İslam Respublikasının bütün səviyyələrdə nümayiş etdirdiyi dəstəyinin Azərbaycan dövləti və xalqı tərəfindən yüksək dəyərləndirildiyi qeyd olunub.

Müctaba Zünnuri, böyük Zəfər münasibətilə Azərbaycan dövlətinə və xalqına təbriklərini çatdırıb, İranın Azərbaycanın haqq mövqeyinə verdiyi dəstəyi və Azərbaycan ilə həmrəyliyini vurğulayıb. O, müharibədə həyatını itirən şəhidlərin yaxınlarına və Azərbaycan xalqına başsağlığı bildirib və yaralılara Allahdan şəfa diləyib.

Görüşdə ikitərəfli əməkdaşlıq münasibətlərinin daha da inkişafı üçün böyük potensialın olduğu vurğulanıb. Öz növbəsində, Parlamentlərin bu münasibətlərin genişləndirilməsinə öz töhfələrini verə biləcəyi qeyd olunub.

Bölgədə yaranmış yeni vəziyyət və yeni imkanlar fövqündə ölkələrimizin bir-sıra əməkdaşlıq layihələrinin həyata keçirilməsini irəli apara biləcəyi ifadə olunub. Habelə ölkələrimizin beynəlxalq müstəvidə əməkdaşlığı məmnunluqla qeyd olunub. Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Siyasi münasibətlərin sağlam zəmində qurulmasında mühüm amil



Azərbaycanda bütün sahələrdə müasir çağırışlara cavab verən sistemli islahatların həyata keçirilməsi nəticəsində ölkənin sosial-iqtisadi inkişafında böyük nailiyyətlər əldə edilir, dünyəvi, demokratik və hüquqi dövlət quruculuğunun bütün istiqamətlərində böyük uğurlara imza atılır. Həmçinin demokratik cəmiyyətin təməl prinsiplərindən olan siyasi plüralizm daha da şaxələnir, dialoq və əməkdaşlıq mühiti daha da möhkəmlənir, siyasi hüquq və azadlıqlar durmadan genişlənir, çoxpartiyalı siyasi sistemin yeni konfiqurasiyasının formalaşması prosesi sürətlənir, partiyalararası sağlam əməkdaşlıq mühitinin yaradılması müstəvisində ciddi addımlar atılır.

Hazırda ölkədə dayanıqlı inkişafın, siyasi sabitliyin, həmrəylik mühitinin və demokratik ənənələrin təminatçısı olan siyasi dialoqun qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib. Bu fonda hakimiyyət müxtəlif təşəbbüslər vasitəsilə iqtidar-müxalifət dialoqunun, siyasi partiyalar arasında əməkdaşlığın yeni müstəvidə inkişafı üçün əhəmiyyətli addımlar atır. Prezident İlham Əliyevin söylədiyi kimi, hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur, cəmiyyət olaraq artıq bu dialoqun ilkin müsbət təzahürlərini müşahidə edirik. Ölkənin inkişaf və tərəqqisində mühüm strateji resurs hesab olunan milli və siyasi həmrəyliyin qorunması işində bütün mövcud potensialların səfərbər olunması istiqamətində ciddi addımlar atılır.

44 günlük Vətən müharibəsi dövründə dünya ictimaiyyəti Azərbaycanda mütləq siyasi həmrəyliyin, həmçinin bütün xalqın bir yumruq olaraq böyük Qələbə naminə Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin bir daha şahidi oldu.

Aydındır ki, siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsi bilavasitə demokratik ənənələrin inkişafına xidmət edən təcrübədir. Cəmiyyəti düşündürən məsələlərin iqtidar və müxalifət nümayəndələri arasında açıq şəkildə müzakirə olunması bilavasitə demokratiyanın təcəssümüdür. Şübhəsiz, iqtidar-müxalifət siyasi dialoqu, milli və dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi respublikamızda siyasi münasibətlərin sağlam zəmində qurulmasına xidmət edir. Təqdirəlayiq haldır ki, ölkədə yeni siyasi konfiqurasiyanın formalaşmasında müxalifət partiyaları də yaxından iştirak edirlər. Hazırda iqtidar ilə müxalifət arasında milli maraqlar naminə indiyədək mövcud olmayan yaxınlaşmanın müşahidə edilməsi bunun əyani təsdiqidir. Siyasi proseslərdə iştirak edən tərəflər arasında sağlam münasibətlərin qorunması və bu münasibətlərin tənzimlənməsi üçün fərqli təşəbbüslər reallaşmaqdadır.

Bu gün milli maraqlar və dövlətimizin rifahı naminə ölkədə siyasi dialoq mühitinin dəstəklənməsi çox böyük strateji əhəmiyyətə malikdir. Dayanıqlı siyasi dialoq mühitinin qorunması kontekstində isə sözügedən məfhumun əhalinin ictimai şüurunda əks olunması məsələsi aktuallaşır. Odur ki, elmin müxtəlif sahələrinin metodoloji potensialına müraciət edərək mövzunun Azərbaycan cəmiyyətində təşviqi vacib vəzifədir. Təsadüfi deyil ki, siyasi dialoq mühitinin təşviqi, eləcə də konkret məsələlərin, o cümlədən qanun layihələrinin, sosial problemlərin, siyasi və digər təzahürlərin müvafiq sahələrin mütəxəssisləri ilə birgə müzakirəsi təcrübəsi artıq ölkəmizin siyasi reallığının ayrılmaz xüsusiyyətlərindəndir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə ölkəmizin qabaqcıl ali təhsil müəssisələrinin və müxtəlif elmi-tədqiqat institutlarının rəhbər və mütəxəssislərinin iştirakı ilə videokonfrans formatında "Siyasi dialoqun Azərbaycan modeli" adlı görüşün təşkil olunması bu baxımdan mühüm əhəmiyyət daşıyır. Administrasiyanın Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin dediyi kimi, siyasi prosesləri müxtəlif aspektlərdən tədqiq edən elm adamları ilə açıq müzakirələrin təşkil olunması yüksək qiymətləndirilməlidir. Çünki siyasi proseslərin tədqiq edilməsində, siyasi dialoqun fəlsəfi, sosial, iqtisadi, tarixi və digər təzahür formalarının müəyyənləşdirilməsində, siyasi dialoqun təşviqində, xüsusilə ölkədə dialoq ənənələrinin formalaşmasında elm adamlarının, mütəxəssislərin və tədqiqatçıların əvəzolunmaz rolu var.

Prezident İlham Əliyevin "Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır. Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır",- fikri bir daha onu deməyə əsas verir ki, məhz dövlətimizin başçısının siyasi iradəsi və demokratik dəyərlərə sadiqliyi nəticəsində dialoq mühiti daha da inkişaf edərək ölkəmizin tərəqqisinə böyük töhfələr verəcək.

***Zahid Rza***

ANALİTİK

## Serj Sarqsyanın Aprel məğlubiyyəti: 44 günlük zəfər yolunun başlanğıc nöqtəsi

<u>Ermənistan TŞ-nın katibi:</u> "Əgər Azərbaycan hərbi əməliyyatları saxladısa, demək, Sarqsyanın verdiyi sözləri qarşı tərəfi qane edib"



**2016-cı ilin Aprel müharibəsində Azərbaycan Ordusunun Ermənistanın silahlı təxribatlarına qarşı başlatdığı əks-hücum əməliyyatları zamanı əldə etdiyi zəfərinin ardınca Ermənistanda baş verən proseslər nəticə etibarı ilə hakimiyyətin dəyişilməsinə gətirib-çıxardı. Ermənistanın o zamakı Serj Sarqsyan iqtidarı dördgünlük Aprel müharibəsində aldıqları ağır və sarsıdıcı məğlubiyyətlərini ört-basdır etməkdən ötrü müxtəlif bəhanələr gətirsələr də, xalq onların yalanlarına inanmadı və sonradan Nikol Paşinyanın müxalifət lideri olaraq məxməri inqilab vasitəsi ilə hakimiyyəti devirməsi səbəbi də dördgünlük müharibənin gətirdiyi nəticələrlə bağlanılmaqdadır.**

O da əbəs deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə öz çıxışlarında bildirib ki, Ermənistan ordusunun məğlubiyyətin əsas baiskarları illər boyunca işğalçılıq siyasətindən əl çəkməyən ölkənin və bu ölkənin əvvəlki iqtidarlarının - Robert Koçaryan-Serj Sarqsyan hakimiyyətlərinin üzərinə düşür. Bu siyasəti davam etdirmək niyyətində olan Nikol Paşinyan isə bu arzusuna nail ola bilməyib və aşkar nəticə göz önündədir!

### Armen Qriqoryan bildirib ki, Serj Sarqsyan müharibənin dayandırılması üçün vədlər verdi və...

"2016-cı ilin aprel müharibəsi o zamankı prezident Serj Sarqsyanın verdiyi sözündən sonra dayandırılıb". SİA xəbər verir ki, bunu "Radio Azatyutyun"a Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan deyib. Onun sözlərinə görə, müharibənin dayandırılması üçün məhz Azərbaycan tərəfinin maraqlarını təmin edən qrafikin realizəsindən sonra müharibə dayandırılıb.

"Aprel müharibəsi erməni tərəfinin verdiyi söz səbəbindən dayandı. Yeri gəlmişkən, həmin verilən sözdən sonrakı o qəbul olunmuş qrafiki ehtiva edirdi və bu qrafik yay boyunca təyin edilmiş müəyyən zamana hesablanmışdı. Yayda "Sasna srer" hadisəsi (İrəvanda yerləşən post-patrul polis alayının silahlı qruplaşma tərəfindən ələ keçirilməsi) baş verdi və Serj Sarqsyan bundan istifadə edərək, verdiyi sözünü 2017-ci ilin aprelinə, sonra isə hakimiyyətin tranzitinə qədər təxirə saldı", deyə Qriqoryan bildirib və sabiq prezidenti bir sıra ittihamlarda suçlayaraq, Ermənistanın düşdüyü mövcud ağır vəziyyətin səbəbkarı kimi təqdim edib.

### "Mən açıq bəyan edirəm ki, məhz onun verdiyi vədlərdən, yaradılan dalanlardan sonra biz ciddi problemlərlə üz-üzə qaldıq"

SİTAT: "Lakin bu adam çoxsaylı vədlər verərək, Ermənistan üçün belə bir mühit yaratdı - o postunu tərk edir və sonra da gəlib deyir ki, "mən imzalamağa, hər hansı addımlar atmağa hazır idim". Bununla yanaşı, mən açıq bəyan edirəm ki, məhz onun verdiyi vədlərdən, yaradılan dalanlardan sonra biz ciddi problemlərlə üz-üzə qaldıq".

Serj Sarqsyanın Aprel müharibəsindən sonra hansı vədləri verməsi sualını cavablandıran Ermənistanın təhlükəsizlik şurasının katibi deyib: "Yəqin ki, bu haqda daha dəqiqi sözü Serj Sarqsyan deyə bilər, ancaq aprel müharibəsi dayandırıldı və bundan sonra razılaşmalar əsasında qrafik müəyyən olundu ki, onlar icra edilməli idi".

Jurnalistin "Ərazilərin qaytarılması vədləri var idimi?" sualını cavablandıran Armen Qriqoryan bu suala da Sarqsyanın daha ətraflı cavab verəcəyini deyib. Razılaşmaların Azərbaycanı qane edib-etmədiyini də soruşan jurnalistə cavab verən Qriqoryan bildirib: "Əgər Azərbaycan hərbi əməliyyatları saxladısa, demək, onun (Sarqsyanın) verdiyi sözləri qarşı tərəfi qane edib".

Xatırladaq ki, Ermənistanın keçmiş prezidenti Serj Sarqsyan ölkə KİV-nə verdiyi müsahibəsi zamanı özünü təmizə çıxarmaq niyyəti ilə Aprel müharibəsində aldıqları məğlubiyyətin günahlarını boynunda atmağa çalışıb, ikinci Qarabağ müharibəsindəki sarsıdıcı məğlubiyyətin məsuliyyətinin isə Nikol Paşinyanın üzərində olduğunu bildirib. Lakin o, bir tərəfdən hakimiyyəti zamanı silah-sursatlar aldığını bildirsə də, həmin silah-sursatların, hərbi texnikaların yararsız olması da sonuncu müharibədə öz təsdiqini tapıb. Həmçinin, Sarqsyanın "çulunu sudan quru çıxarmaq" cəhdinin nəticəsiz qaldığını da belə izah etmək olar ki, əslində, 2016-cı ilin Aprel məğlubiyyəti 2020-ci ildə qazandığımız şanlı qələbənin başlanğıc nöqtəsi kimi tarixə düşüb.

***Rövşən RƏSULOV***

## İndoneziya-Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı qətliamının ildönümü ilə əlaqədar bəyanat yayıb

**İndoneziya Respublikasının Nümayəndələr Palatasında fəaliyyət göstərən İndoneziya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Məhəmməd İqbal Xocalı qətliamının 29-cu ildönümü ilə əlaqədar bu qrupun adından bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bəyanatda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərinin mülki əhalisinin soyqırımına məruz qaldığı, bu qətliam nəticəsində 106-sı qadın, 63-ü uşaq və 70-i qoca olmaqla, ümumilikdə, 613 nəfərin qətlə yetirildiyi, yüzlərlə insanın ağır yaralandığı və 1275 nəfərin əsir götürüldüyü qeyd olunub.

Sənəddə qrup üzvləri Xocalı qətliamının insanlıq tarixinə böyük ləkə kimi düşdüyünü, bu soyqırımının təşkilinə görə məsuliyyət daşıyan şəxslərin beynəlxalq səviyyədə cəzalandırılmalı olduğunu vurğulayıblar. Ermənistan-Azərbaycan münaqişəsinin ən qara səhifəsi olan, 29 il bundan əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsində törədilən Xocalı qətliamı qurbanlarının xatirəsinin qrup üzvləri tərəfindən dərin kədər və təəssüf hissi ilə yad edildiyi, bu qətliam nəticəsində həlak olanlara Allahdan rəhmət dilədikləri, onların ailə üzvlərinə və bütün Azərbaycan xalqına başsağlığı verildiyi qeyd olunub.

Qrup üzvləri bir daha dünyanın heç bir yerində bəşəriyyət əleyhinə bu cür cinayətin törədilməməsi üçün Xocalıda həyatını itirən insanların yad olunduğunu, burada törədilən dəhşətli cinayətlərin yadda saxlanılmasını vacib hesab etdiklərini bildiriblər. Həmçinin Xocalı qurbanlarının hər kəsə sülhün dəyərini xatırlatdığını qeyd ediblər.

Bəyanatda, eyni zamanda, Xocalı qətliamının 29-cu ildönümü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yeni beynəlxalq sülh səylərinin başladılması üçün fürsət kimi qiymətləndirilib. Ermənistana BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini yerinə yetirərək, Azərbaycan ərazisində hələ də qalan hərbi dəstələri buradan çıxarmağa və bir milyon azərbaycanlı qaçqının evlərinə qayıtması üçün şərait yaratmasına çağırış edilib.



Secretary General
The House of Representatives
The Republic of Indonesia
Jakarta, 10 February 2021

Ref. 04 /BKSAP/II/2021

**H.E. Mr. Jalal Mirzayef**
Ambassador of the Republic of Azerbaijan
Jakarta

Your Excellency,

Regarding the commemoration of the Khojaly Tragedy on this month, on behalf of the Secretary General of the House, I would like to convey the statement from our Parliamentary Friendship Group regarding that matter as attached.

Thank you very much for your kind cooperation. Please accept, Your Excellency, the assurances of my highest consideration.

Yours sincerely,

<u>Endah T.D. Retnoastuti</u>
Head of Bureau
Inter-Parliamentary Cooperation

# Türkiyə prezidenti Azərbaycanın Baş prokurorunu qəbul edib



Fevralın 17-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Baş prokuror yüksək qonaqpərvərliyə və səmimi qəbula, həmçinin 44 günlük Vətən müharibəsi dövründə Türkiyə tərəfindən göstərilən mənəvi dəstəyə görə təşəkkürünü ifadə edərək Prezident İlham Əliyevin salamlarını Türkiyənin dövlət başçısına çatdırıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hüquq mühafizə sahəsində də uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin daha da möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olunub.

Türkiyə Respublikasının Prezidenti dövlətimizin başçısı İlham Əliyevə salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib. Səfər çərçivəsində nümayəndə heyəti tərəfindən Ankarada xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin adını daşıyan park ziyarət edildi, abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad olunub.

# Hər günü bir şanlı qələbə olan 44 gün



**30 illik vətən həsrəti, nisgili, arzularımız, xəyallarımız, yuxularımız, gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı 44 gündə gerçəyə çevrildi! 10 noyabr 2020-ci il... Prezident, Ali Baş Komandan İlham Əliyev cəynablarının qətiyyətli mövqeyi, Müzəffər Ordumuzun, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində 44 gün ərzində döyüş meydanında gücünü göstərdi, düşmənin müqaviməti qırıldı və 10 noyabr şanlı tariximizə Zəfər günü kimi yazıldı.**

Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması nəticəsində Azərbaycan Ordusu vətən uğrunda ölüm-dirim savaşına qalxdı. Ordumuz bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Dağlıq Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün Vətən müharibəsinə başladı. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız düşmənin hərbi təxribatının qarşısının alınması üçün ordumuza "İRƏLİ!" əmrini verdi. Güclü Azərbaycan Ordusu və məğrur və rəşadətli əsgərlərimiz Ali Baş Komandanın əmrlərini yerinə yetirərək artıq 44 gün ərzində Azərbaycan Şanlı Qələbəsinə nail oldu. Hər günü bir şanlı qələbə olan 44 gün ərzində düşmənləri 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovdular. Ali Baş Komandanımız müraciətlərində də Ermənistanın rəhbərliyinin nə qədər qorxaq və mənəviyyatsız olduğunu dəfələrlə deyib və bunu həm siyasi, həm də döyüş meydanında sübut etdi: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Vəssalam, nida! Başqa yol yoxdur!!!

Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi. Təcavüzkar və işğalçı Ermənistan gördü ki, xalq-iqtidar-ordu birliyinin nümunəsi QƏLƏBƏDİR! Həmçinin, bu vəhdətin nümunəsi qədirbilən xalqımızın öz Prezidentinin, Ali Baş Komandanının yanında olması, Onun hər sözünə, bütün qərarlarına sadiqliyidir. Məhz bu gün düşmən ordusu Azərbaycan əsgərinin qabağında aciz qalaraq döyüş meydanından qaçmağa məcbur olur. Çünki yalançı, faşist, qorxaq, rəzil Paşinyanın bu iki ildən yuxarı hakimiyyətdə olduğu müddətdə Ermənistanı və erməni xalqını məhvə aparır. Bunu nəinki erməni xalqı, bütün dünya gördü və görür.

Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında, müraciətlərində, müsahibələrində bildirib ki, biz istəyirik ki, sülh yolu ilə bunu təşkil edək, sülh yolu ilə bunu alaq: "Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!".

Bir sözlə, bu gün artıq Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Bəli, sentyabrın 27-də Ermənistanın törətdiyi təxribata atekvat cavabı olaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış "dəmir yumruq" siyasəti ilə 44 günə dağıtdı. Azərbaycanın yeni tarixini yazdı. Azərbaycan Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin həyata keçirdiyi düşünülmüş "dəmir yumruq" siyasəti ilə Qarabağ Azərbaycandır! Və 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq!

***Nicat Hüseynov,***
***YAP Səbail rayon təşkilatının baş məsləhətçisi***

# YAP Masallı rayon təşkilatının nümayəndələri şəhid ailələrini ziyarət ediblər



YAP Masallı rayon təşkilatı 44 günlük Vətən müharibəsi zamanı şəhid olmuş hərbçilərimizin ailələrini mütəmadi şəkildə ziyarət edirlər. Rayonun Güllütəpə, Banbaşı, Yeddioymaq kəndləri və Masallı şəhərində keçirilən



görüşlərdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Qadınlar Şurasının sədri Gülşən Xəlilova, Gənclər Birliyinin sədri Bəxtim Qarayev, Qadınlar Şurasının üzvləri Əntiqə Tağıyeva, Sevil Qəhramanova, Güllütəpə ərazi ilk partiya təşkilatının sədri Əlövsət Muradov, Banbaşı ərazi ilk partiya təşkilatının sədri Elsevər Məcidov, Yeddioymaq ərazi ilk partiya təşkilatının sədri İlqar Qafarov, YAP fəalları Mehriban Əzizova, Azadəli Vəliyev, Vüqar Şükürov və başqaları iştirak ediblər.

Rayon təşkilatının nümayəndələri Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Nüsrətbəyli Ülvi Arif oğlunun, Elmir Akifzadə Gündüz oğlunun, Sultanzadə Niyaməddin Hüsaməddin oğlunun və Quluzadə Əlimərdan Fəttah oğlunun ailələrini ziyarət ediblər.

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyevqeyd edib ki, bu 44 günlük müharibə Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və iradəsi ilə müzəffər ordumuzun gücünü, xalqımızın birliyini dünyaya göstərdi. Azərbaycanın igid əsgər və zabitləri Vətən müharibəsində elə bir Şanlı tarix yazdılar ki, bu qəhrəmanlıq dastanı Azərbaycan var olduqca yaşayacaq, gələcək nəsillər tərəfindən öyrəniləcək və Şəhidlərimizin əbədiyaşar xatirələri daima yad olunacaqdır.

Şəhid ailələrinin üzvləri dövlət tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildirdilər. Eyni zamanda, şəhid ailələrinin gündəlik qayğıları dinlənildi, onlara ərzaq sovqatı və maddi yardım göstərildi. Allah Vətən torpaqlarının azadlığı və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən bütün Şəhidlərimizə qəni-qəni rəhmət eləsin!.

***R.HÜSEYNOVA***

# Sevinc Fətəliyeva: Ermənistanda revanşist qüvvələr baş verənlərdən nəticə çıxarmalıdır



"Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizin ən şanlı səhifələrindən biridir. Hazırda qarşımızda duran ən əsas vəzifə işğaldan azad olunmuş torpaqlarımızın bərpası, quruculuq işlərinin həyata keçirilməsidir. Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı öz mesajlarını verir. Fevralın 14-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri də bu baxımdan böyük önəm kəsb edir". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, Prezident İlham Əliyev hər zaman prinsipiallıq, yenilməz iradə nümayiş etdirərək Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə edib. Vətən müharibəsinin gedişində, ümumiyyətlə, danışıqlar prosesinin müxtəlif mərhələlərində Prezident İlham Əliyevin göstərdiyi prinsipiallıq və qətiyyət, milli maraqlarımızı cəsarətlə müdafiə etməsi, böyük diplomatik məharəti, dəqiq, məqsədyönlü, ardıcıl siyasət aparması qazanılmış tarixi qələbənin məntiqi nəticəsidir. Azərbaycanın gücü, potensialı və strateji yanaşması bölgədə yeni reallıq yaradacaq. Güclü və böyük iqtisadi potensiala malik Azərbaycanın işğaldan azad edilmiş ərazilərin sürətli inkişafına nail olacaq, bu bölgələrin ən qabaqcıl standartlara uyğun yenidən bərpa ediləcəyi, oarada yaşayan əhalinin rifahı üçün bütün addımlar atılacaq və bütün bunlar həmin regionda yaşayan bütün insanlar üçün yeni perspektivlər açacaq.

Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyevin təməlini qoyduğu, uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Bu nəqliyyat infrastrukturu vətəndaşlarımızın azad olunmuş torpaqlara gediş-gəlişini asanlaşdıracaq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsini yaradacaq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Deputat qeyd edib ki, imzalanmış Bəyanat ardıcıl şəkildə icra edilir: "Naxçıvana quru dəhlizin açılması mühüm tarixi nailiyyətdir. Məhz Azərbaycan Prezidentinin təkidi ilə əvvəllər nəzərdə tutulmayan Azərbaycanın qərb rayonları və Naxçıvan MR arasında nəqliyyat əlaqəsi yaradılacaq. Bununla da Naxçıvan həm blokadadan çıxarılır, eyni zamanda, yeni nəqliyyat damarı yaradılır. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşir. Belə bir yeni nəqliyyat dəhlizinin yaradılması regionda mühüm hadisədir və region ölkələrinin əməkdaşlığını daha da gücləndirəcək".

S.Fətəliyeva söyləyib ki, Ermənistanda revanşist qüvvələr baş qaldırmağa, Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar: "Amma bütün bunlar əbəsdir. Prezident İlham Əliyev Laçın rayonunda olarkən bəyan etdi ki, "Biz hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın". Ona görə də, erməni tərəfi başına gələnlərdən ibrət dərsi götürməlidir. Onlar anlamalıdırlar ki, təxribatçı əməllərlə, bəyanatlarla heç nəyə nail ola bilmzlər. çünki Azərbaycanın gücünü gördülər. Ermənistanın gələcəyi öz qonşuları ilə normal əməkdaşlıqdan asılıdır".

# Seçim dəyişilməzdir

## Fakt ondan ibarətdir ki, Azərbaycan xalqının alternativsiz seçimi Prezident İlham Əliyevdir



**Cəmiyyətin dəstəyindən tamamilə məhrum olan dağıdıcı müxalif partiya sədrlərinin siyasi fəaliyyətlərində ciddi problemlərin mövcudluğu onların milli-siyasi məkanda uğurlar əldə etmələrinə mane olur. Daha doğrusu, ictimai rəyin rəğbətini qazanmaq üçün konkret proqram və ya ideya irəli sürə bilməməri, bəzən isə bu kimi gözləntilərin əksinə olaraq xarici maraqlı qüvvələrin sifarişlərinə əsasən pozuculuq aktları törətməyə cəhd etmələri onlara olan nifrətin bir qədər də genişlənməsinə səbəb olur.**

Bu baxımdan əminliklə demək olar ki, ölkəmizdə bütün sahələrdə inkişafa, tərəqqiyə nail olunsa da, Azərbaycanın inkişaf tarixinin 30 illiyi dönəmində dəyişməyən yalnız dağıdıcı müxalifətdir. Yenə də küçə təfəkkürlü davranış, fərqli görünməyən meydan çağırışları. Qısası, xarici qüvvələrin qrantlarına satılan dağıdıcı müxalifətin əsas mübarizə istiqamətləri Azərbaycanın imicinə zərər vurmaq və əldə etdiyi mütərəqqi uğurlarına kölgə salmaqdır. Hətta o dərəcə də, ağıllarını itirib, xarici qüvvələrin gəlişi gözəl vədlərinə aludə olublar ki, 44 günlük Vətən müharibəsi dönəmində qazanılan parlaq qələbəmizə kölgə salmağa belə cəhdlər göstərirlər.

### İndiki müxalifət torpaqlarımızın işğal olunmasının əsas günahkarıdır

Halbuki, torpaqlarımızın yağı düşmən tərəfindən zəbt edilməsinin əsas günahkarı elə, indiki müxalifətin boşboğaz ünsürləridir. Haqlı olaraq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev fevralın 14-də Laçın rayonunun Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra, çıxışında AXC-Müsavat məhfur cütlüyünün hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satdığını bildirdi: “Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyinəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın”.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev onu da bildirdi ki, o vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər: “Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm”.

### Prezident İlham Əliyev: “Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir!”

Azərbaycan Prezidenti onu da qeyd edib ki, bizim Qələbəmiz tarixi Qələbədir: “Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.

Bir sözlə, indiki müxalifətin o zaman dağıdıb, viran qoyduğu Azərbaycanı Ulu Öndərimiz Heydər Əliyevin müdirik siyasəti və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində yenidən quruldu. Nəhayətdə, 30 ilə yaxındır ki, işğal altında olmuş Qarabağımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti ilə azad edildi. Ona görə də, hər cür pozucu xarakterli şoulara baxmayaraq dağıdıcı müxalifət heç bir halda xalqın dəstəyini qazana bilməz. Birmənalı şəkildə görünən və etiraf olunan fakt ondan ibarətdir ki, Azərbaycan xalqının alternativsiz seçimi Prezident İlham Əliyevdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində həyata keçirdiyi taktiki strategiyası ilə “Qarabağ Azərbaycandır və nida işarəsi “ tarixi fikrini gerçək və real bir həqiqətə çevirdi. Vətən müharibəsi başlayandan Xalq-Ordu Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməklə mənfur düşməni təslim olmağa məcbur etdi. Bununla da rəşadətli ordumuz təkcə Azərbaycan hərb tarixinə deyil, eyni zamanda müasir hərb tarixinə qızıl hərflərlə qəhrəmanlıq salnaməsi yazdı. Artıq Cənab Prezidentin də qeyd etdiyi kimi, status kvo və təmas xətti yoxdur, suverenliyi bərpa olunan qüdrətli Azərbaycan dövləti var. Buna görə yeddidən yetmişə qədər hər kəs Qarabağın fateh sərkərdəsi, Ali Baş Komandan İlham Əliyevə sonsuz təşəkkürünü və minnətdarlığını bildirir.

***İ.ƏLİYEV***

# Ermənistan hakimiyyəti kütləni susdurmağa çalışır



**Təhqir və böhtana görə cəzanın sərtləşdirilməsi barədə qanun layihəsi artıq vahid hüquqi məlumat portalında yayımlanıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, sənəd e-draft.am vahid hüquqi məlumat portalında dərc edilib. Məlumatda qeyd olunur ki, Ermənistan Ədliyyə Nazirliyi Cinayət Məcəlləsinə bir dəyişiklik layihəsi hazırlayib, ona görə hökumət məmurlarını, xüsusən də polis məmurlarını təhqir etmə məsuliyyətinin sərtləşdirilməsi təklif edilib.**

Dəyişikliklərə görə, dövlət qulluqçusunu rəsmi vəzifələrini yerinə yetirdiyi vaxt təhqir etmək və ya böhtan atmaq, minimum əmək haqqının 100 ilə 500 misli arasında cərimə ilə cəzalandırılacaqdır. Kütləvi informasiya vasitəsi ilə və bir dövlət məmuruna qarşı edilən eyni hərəkət minimum əmək haqqının 500 ilə 3 min misli arasında cərimə və ya iki ilə qədər həbs cəzası ilə cəzalandırılır. Ermənistanın Cinayət Məcəlləsinə görə dövlət orqanlarında və yerli özünüidarə orqanlarında xidmət edən, rəsmi qaydada tabeçiliyində olmayan şəxslərə münasibətdə müəyyən edilmiş qaydada inzibati səlahiyyətlər verilmiş şəxs hakimiyyət nümayəndəsi sayılır.

Xatırladaq ki, Ermənistanda ötən ilin noyabr ayının 9-dan, yəni, işğalçı ölkənin baş naziri Nikol Paşinyan kapitulyasiyaya imza atdıqdan sonra etiraz nümayişləri keçirilir və bu nümayişlər, hətta ən xırda aksiyalar zamanı dövlət məmurları, başda elə baş nazirin özü olmaqla təhqir edilir. Dünya ictimaiyyəti erməni səlahiyyətlilərinin təhqir, hətta təhdid belə olunduğunun dəfələrlə şahidi olub.

Qeyd edək ki, təkcə etiraz nümayişlərində iştirak edənlər deyil, bu işğalçı ölkənin kütləvi informasiya vasitələri də Ermənistan hakimiyyətinə, baş nazir Paşinyanın özünə də təhqirlərlə dolu ifadələr ünvanlayıblar. Yaxud, Ermənistana məxsus mətbuat səhifələrində erməni politoloqlarının da baş nazir Paşinyan barədə təhqiramiz ifadələri dərc edilib və hələ də dərc edilməkdədir. Görünür, Ermənistan hakimiyyəti, başda elə baş nazirin özü olmaqla səlahiyyətlilər bu işğalçı ölkənin böhranına görə cavabdehlik daşımaq əvəzinə bu təhqirlərdən yaxa qurtarmağa çalışırlar. Heç şübhəsiz ki, demokratiyadan dəm vuran, demokratik yolla hakimiyyətə gəldiyini iddia edən, əslində isə hakimiyyət çevrilişinə imza atan Ermənistan hakimiyyəti bu dəfə də kütləni susdurmağa çalışır. Elə bu məqsədlə də əməllərinə hüquqi əsaslar qazandırmaq üçün qanunda dəyişikliklər etmək niyyətindədir.

***İnam Hacıyev***

# Gürcüstanın Azərbaycana nə qədər borcu var?

**Bu ilin fevralın 1-nə Gürcüstanın Azərbaycana borcu 5, 491 milyon ABŞ dollarına bərabər olub. Bu barədə Gürcüstan Maliyyə Nazirliyinin hesabatında bildirilib.**

Sənədə əsasən, aylıq müqayisədə qonşu ölkənin Azərbaycana borcu dəyişməz qalıb. Gürcüstanın xarici dövlət borcunun ümumi məbləği aylıq müqayisədə 0,2 milyard ABŞ dolları artaraq 7,8 milyard ABŞ dolları olub. Bu məbləğin 7,4 milyard ABŞ dolları hökumətin payına düşür.

Qonşu ölkənin Türkiyə, Rusiya və Ermənistana müvafiq olaraq 10,617 milyon ABŞ dolları, 40,454 milyon ABŞ dolları və 5,485 milyon ABŞ dollar borcu var.



# “Sən bir fərari, dezertir atasısan!” - YAP gənclərindən Əli Kərimliyə mükəmməl cavab!

**“Xalqa, yaxud xalqın bir kəsiminə müraciət etmək üçün həmin xalq və ölkə qarşısında müəyyən xidmətlərin olmalıdır. İllərdir özünü siyasətçi adlandıran, lakin fəaliyyəti bloqqerlikdən o tərəfə keçməyən, adı xəyanət simvoluna çevrilən Əli Kərimli indi də utanmayaraq gənclərə çağırış edir. Həm də gəncləri dağıdıcılığa, radikalizmə, qanunsuzluğa, itaətsizliyə dəvət edir”. SİA xəbər verir ki, bu münasibət Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin feysbuk sosial şəbəkə səhifəsində qeyd olunub.**


photo TREND

“Görəsən, fərari atası Əli Kərimli hansı haqla ölkə gənclərinə müraciət edir? Bu adama deyən lazımdır ki, sənin oğlun da gənclik yaşındadır və hər bir gəncin xalq, vətən qarşısında ən ümdə vəzifəsi Vətən qarşısında olan borcunu ödəməkdir. Bəs, haradadır sənin oğlun və Vətən qarşısında olan borcunu ödəməkdən niyə yayınır? Sən bir fərari, dezertir atasısan!”, deyə qeyd edilən paylaşımda YAP gəncləri AXCP sədri Əli Kərimlini abırlı olmağa dəvət ediblər və bildiriblər ki, onlarla gəncin həyatlarını zəhərləyən bu fərd onların gələcəklərini məhv edib, amma öz övladları xarici ölkələrdə kef çəkiblər: “Bəlkə bu abırına bürünəsən?! İkincisi, bu gənclər necə unutsun ki, onlarla ailənin gənc üzvlərinin həbsxanalara düşməsinə səbəb olmusan. Hansısa ailənin gənc üzvü illərlə həbsxanada yatıb, sən isə “siyasi məhbus” adı altında on minlərlə dollar qrant alıb Türkelinin, Selcanının xarici ölkələrdə bahalı həyat qurmasına sərf etmisən. Bəlkə, kasıblamısan? Ona görəmi gəncləri aldadıb qanunsuzluğa dəvət edirsən ki, yenidən həbsə düşsünlər, sən də qrant alasanmı?”

### “Türkelin, Selcanın bank hesabında pulları azalıb, bunun üçün də yeni simaların tora salınması lazımdır”

Hakimiyyətin tərəfdarı olan gənc fəallar Azərbaycan gənclərinə çağırış edərək, AXCP sədri Əli Kərimlinin hansı yuvanın “quşu” olduğunu da xatırladıblar və onun izi ilə gedənlərin heç də xeyir, səmərə tapa bilməyəcəklərini bildiriblər: “Bu gün gənclər də bilməlidir ki, Əli Kərimli bir siyasi dəllaldır və ona ölkəmizin gəncləri ancaq şəxsi maraqlarını təmin edə bilmək üçün vasitə, alət olaraq lazımdır. Olsun ki, pandemiya səbəbindən qrantlar zəifləyib, ianələr azalıb, Türkelin, Selcanın bank hesabında pulları azalıb. Bunun üçün də yeni simaların tora salınması lazımdır. Elə bu səbəbdəndir ki, Əli Kərimli bu dəfə divanın üstündə çabalayır ki, gənc nəsli vurub quyuya salsın, pul qazansın. Gənclər bilsinlər ki, bu, onun üçün heç də ilk cəhd deyil. Ötən illər ərzində Əli Kərimli neçə-neçə gəncin həyatını alt-üst edib”.

### “Bu işdə pionerlərdən olan Ruslan Bəşirli, Əbülfəz Qurbanlı, Aqil Məhərrəmov, Niyaməddin Əhmədov və başqaları...”

O da xatırladılır ki, zamanında Əli Kərimlinin yanında gənclik illərini xərcləmiş bir çoxları sonradan AXCP sədrinin onlara münasibətini dərk edərək, nə qədər xəyanətkar, başqalarının hesabına öz məqsədlərini icra etmək istəyən, satqın olduğunu anlayıblar, AXCP sıralarından istefa veriblər: “Bu işdə pionerlərdən olan Ruslan Bəşirli, Əbülfəz Qurbanlı, Aqil Məhərrəmov, Niyaməddin Əhmədov və başqaları. Soruşun, soraqlayın, görün adları çəkinlərdən bəziləri həbsdən çıxdıqdan sonra Əli Kərimli onlarla heç maraqlanıbmı? Əlbəttə ki, yox. Sağlam əqidəli, Vətənini, xalqını, ölkəsini sevən Azərbyacan gəncliyi anti-Azərbaycan dairələrin əlaltısı olan Əli Kərimli kimilərinə öz yerini göstərməli, hər addımda beləlırinə layiq olduqları cavabları verməlidir”.

“Gənclik dövrü AXC-Müsavat hakimiyyəti dövrünə düşən insanların taleyini müasir Azərbaycan gəncliyinə yaşatmaq istəyən Əli Kərimli kimi anti-milli ünsürlərin niyyətini gözündə qoymaq gənclərimizin əsas həyat prinsiplərindən biri olmalıdır”, sözügedən sosial paylaşımda vurğulanır.

*Rövşən RƏSULOV*

# Əli Kərimlinin mühafizəçisinin cinayət işi məhkəməyə göndərildi



**AXCP sədri Əli Kərimlinin mühafizəçisi Niyaməddin Əhmədovun qanunsuz əməllərinə dair daxil olmuş məlumatlar əsasında Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. SİA xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.**

Bildirilib ki, istintaqla törətmiş olduğu cinayətə görə məsuliyyətdən boyun qaçırmaq məqsədilə Niyaməddin Əhmədovun 22.05.2017-ci il tarixdə Azərbaycanı tərk edib Almaniyada istintaqdan gizlənən tanışı Qabil Məmmədovla birlikdə “YouTube” videopaylaşma sistemində qeyri-məhdud sayda şəxslər dairəsinə yönəlməklə ölkəmizdə konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn, habelə eyni məqsədlə hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlar törədilməsi ilə bağlı açıq çağırışlar etmələrinə əsaslı şübhələr müəyyən edilib. İstintaqla, həmçinin, Niyaməddin Əhmədovun qeyd olunan materialları internet resursları vasitəsilə təkrarən yayılması üçün mobil tətbiq vasitəsilə qabaqcadan əlbir olduğu şəxslərlə törədiləcək cinayətlərin detalları ilə bağlı razılığa gəlmələrinə, ümumi cinayətkar niyyətə və sövdələşməyə uyğun olaraq Almaniya Federativ Respublikasında toplanmış xeyli miqdarda pulu açıq çağırışlar edəcək və materialları yayacaq şəxslərə tamamilə paylamaqla terrorçuluğu maliyyələşdirməsinə, lakin hüquq-mühafizə orqanları tərəfindən ifşa olunduğundan cinayətkar əməlini başa çatdıra bilməməsinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, istintaqla Niyaməddin Əhmədovun ölkə ərazisində öz şəxsi maraqları naminə icra etmək istədikləri hərəkətləri gizli olaraq qeydə almaq məqsədilə digərləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşib cinayət əlaqəsinə girərək qanunla mülki dövriyyədə olmasına yol verilməyən xüsusi ləvazimat olan eynək üzərinə uyğunlaşdırılaraq komfulyaj olunmuş gizli vizual müşahidə vasitəsini qanunsuz olaraq əldə edib özündə saxlamasına şübhələr üçün əsaslar müəyyən edilib. Niyaməddin Əhmədova Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 28,281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlara etməyə hazırlıq) və 233-1.2.1-ci (qanunla mülki dövriyyədə olmasına yol verilməyən əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma) maddələri ilə ittiham elan olunmaqla, barəsində həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyatı üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

*R. Nurəddinoğlu*

# Ermənilərin Azərbaycan ərazisində rus diliylə bağlı təxribatı



Ermənilər Azərbaycan ərazisində daha bir təxribata əl atıblar. “İki sahil” “RİA Novosti” agentliyinə istinadən xəbər verir ki, ötən gün separatçı rejimin “Milli Məclis”i erməni dilindən əlavə, rus dilinin də rəsmi dil kimi tanınmasına dair bir “qanun layihəsi” təqdim edib.

***

Musavat.com saytında hadisəylə bağlı geniş məlumat dərc olunub. Qeyd olunub ki, Qarabağın dağlıq hissəsində oyuncaq dövlət təsisatı quran ermənilər 44 günlük müharibədə “böyük qardaşı” Ermənistanla birlikdə acı məğlubiyyətə uğramalarına baxmayaraq, öz mövcudluqlarını qoruduqlarını göstərmək üçün müxtəlif təxribat xarakterli edirlər. Onların biri də budur ki, dünən qondarma “respublika”nın rəhbəri Araik Arutyunyan rus dilinin rəsmi dövlət dili kimi tanınması barədə qanunu imzalayıb.

Öz tükdən asılı mövcudluqlarını Moskvaya, Kremlə borclu olan, “sülhməramlı qüvvələr”ə güvənərək bunkerlərdən bayıra çıxıb şəhərdə hərəkət edə bilən “hökumət”in belə bir addımı, şübhəsiz ki, “lap böyük qardaş”a yarınmaq cəhdidir. Qondarma “dqr”-də Rusiyanın məhdud hərbi kontingentindən başqa rus dilində danışan bir kimsə yoxdursa, həmin “rəsmi dil” kimə nə üçün lazımdır?

Hər hansı bir status alıb-almamasından asılı olmayaraq, sülhməramlılar onsuz da öz dillərində danışırlar və erməniləri onlarla bu dildə danışmağa məcbur qoyublar.

# Qadına qarşı zor tətbiq edən polis işdən qovuldu

Yasamal rayonunda bərbərxanada qadına qarşı zorakılıq hərəkətləri edən polis əməkdaşı vəzifəsindən azad edilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, hadisə ilə bağlı DİN-də aparılan araşdırma yekunlaşıb. Videogörüntülər DİN-də hərtərəfli və operativ araşdırılıb və qərar qəbul edilib. Araşdırmanın nəticəsi olaraq qapalı məkanda tibbi maskadan istifadə etməyən xanıma qarşı kobudluq edən şəxsin Yasamal RPİ 27-ci Polis Bölməsinin sahə müvəkkili Qubadov Camal Qubad oğlu olduğu müəyyən edilib və o polis adına yaraşmayan əməlinə görə tutduğu vəzifədən azad edilib.




Xatırladaq ki, fevralın 12-si saat 16 radələrində Yasamal rayonu, Şıxəli Qurbanov küçəsində yerləşən bərbərxanaların birində Yasamal RPİ 27-ci Polis Bölməsinin sahə müvəkkili Qubadov Camal Qubad oğlu bərbərxanaya daxil olaraq, qeydiyyatçı işləyən qadına maska taxmadığına görə cərimə yazacağını bildirib. Vətəndaş isə maska taxdığını bildirərək buna etiraz edib. Daha sonra isə sahə müvəkkili bərbərxanada həmin qadına qarşı fiziki təzyiq edərək onu itələyib, sonra isə polis əməkdaşı C.Qubadov həmin xanımı polis bölməsinə aparıb və ona cərimə protokolu yazılıb.

# Erməni deputatlarının homoseksual sevgiləri

Ermənistanın sosial şəbəkələrində deputat Arman Babacanyanla diaspor məsələləri üzrə sabiq nazir, “Mənim addımım” blokunun deputatı Mxitar Hayrapetyan arasında yaşanan sevgi ətrafında müzakirələr səngimir. Eyni cinsli, yəni homoseksuallıq üzərində “sevgi” yaşayan iki erməni deputatı ilə bağlı xəbəri aktiv feysbuk istifadəçisi Qagik Soqomonyan paylaşıb və onun əvvəllər də digər məsələlərlə bağlı yazdıqları sonradan öz təsdiqini tapıb.




O, növbəti statusunda yazıb ki, Babaci ilə Mxonun (Arman Bababacanyan və Mxitar Hayrapetyanı nəzərdə tutur - R.R.) bal ayları uzun davam etmədi. Bu iki eynicinsli sevgili onsuz da bir-birlərini yeyirlər (yəni qalmaqaldadırlar-R.R.). Mxo gün ərzində qısqanclıq səhnələri düzənləyir, Babacinin tək istəklisi olduğundan şübhələnir.

Qeyd edək ki, ermənilərin ArmVoice teleqram kanalı da bu haqda yazaraq bildirir ki, Mxitar Hayrapetyan Babacanyanı Ermənistanın 1in.am informasiya agentliyinin və internet televiziyasının aparıcısı Jirayr Voskanyana qısqanır. Hansı ki, Arman Babacanyan məhz bu agentliyin sahibidir.

# Azərbaycanda ən bahalı 10 avtomobil

**Azərbaycanın avtomobil bazarında qiymətlər avtomobil sahibi olmaq istəyənlərin hər zaman maraq dairəsindədir. Nəinki avtomobilə sahib olmaq istəyənlərin, hətta hər bir insanın avtomobillərin qiymətləri ilə maraqlandığının mütəmadi olaraq şahidi oluruq. Ölkəmizdə ən qiymətli, ən bahalı avtomobillər barədə bir çoxları maraqlanırlar. Bu baxımdan ölkəmizin avtomobil bazarındakı qiymətlər barədə araşdırma apararaq, qiymətinə görə ilk onluqda qərarlaşan avtomobillərin siyahısını tərtib edib, oxucularımızın diqqətinə çatdırırıq.**

Bahalığına görə top onluğun birinci pilləsində mühərrikinin həcmi 6,7 litr olan, 571 at gücünə malik “Rolls-Royce Cullinan” avtomobilidir. Avtomat sürətlər qutusu ilə təchiz olunmuş və yolsuzluq avtomobili olan “Rolls-Royce Cullinan” avtomobili ölkənin avtomobil bazarında 510 min ABŞ




dollarına, yaxud, 867 min manata müştərilərə təklif edilir.

Top onluqda bahalığına görə ikinci yeri “Bentley Flying Spur” və “Bentley Mulsanne” avtomobilləri bölüşürlər. Hər




iki sedan avtomobili avtomat sürətlər qutusu ilə təchiz edilib və ölkənin avtomobil bazarında 350 min AVRO, yaxud, 722 min manata satılır. Mühərrikinin həcmi 6,0 litr olan, “Bentley Flying Spur” avtomobili 636, mühərrikinin həcmi 6,5 litr olan, “Bentley Mulsanne” avtomobili isə 537 at gücünə malikdir.

Bahalığına görə top onluqda üçüncü yerdə “Bentley Continental” avtomobili qərarlaşıb. Mühərrikinin həcmi 6,0



litr olan, 635 at gücünə malik “Bentley Continental” avtomat sürətlər qutusu ilə təchiz edilib. Bu kupe avtomobili ölkənin avtomobil bazarında 310 min AVRO, yaxud, 640 min manat dəyərindədir.

İlk onluqda qərarlaşan ən bahalı avtomobillər arasında



dördüncü yerdə “Mercedes G500” avtomobili durur. Avtomat sürətlər qutusu ilə təchiz olunmuş və yolsuzluq avtomobili olan “Mercedes G500” 350 min ABŞ dollarına, yaxud, 595 min manata satılır. Bu avtomobil 422 at gücündə, mühərriki isə 4,0 litr həcmindədir.

Ölkənin avtomobil bazarında bahalığına görə ilk onluğun beşinci pilləsi “Rolls-Royce Wraith” avtomobilinə məxsus-



dur. Mühərrikinin həcmi 6,5 litr olan bu avtomobil 624 at gücündədir. Avtomat sürətlər qutusu ilə təchiz olunmuş bu kupe avtomobil ölkəmizin avtomobil bazarında 320,5 min ABŞ dollarına, yaxud, 545 min manata təklif olunur.

Avtomobil bazarında ən bahalı avtomobillərin ilk onluğunda altıncı yerdə olan “Land Rover Range Rover” avto-




mobili 260 min AVRO, yaxud, 536,5 min manat dəyərindədir. Avtomat sürətlər qutusu ilə təchiz olunmuş, mühərrikinin həcmi 5,0 litr olan bu yolsuzluq avtomobili 565 at gücündədir.

Ən bahalı avtomobillər arasında ilk onluğun yeddinci pilləsində qərarlaşan və mühərrikinin həcmi 6,5 litr olan “Lam-



borghini Aventador” avtomobili 700 at gücünə malikdir. Bu kupe avtomobili avtomat sürətlər qutusu ilə təchiz edilmiş, ölkə bazarında isə qiyməti 295 min ABŞ dolları, yaxud, 501,5 min manat həddindədir.



Bahalı avtomobillərin ilk onluğunda səkkizinci yerdə “Porsche Taycan Turbo S” qərarlaşıb. Bu elektromobil 761 at gücündədir. Avtomat sürətlər qutusu ilə təchiz edilən bu sedan avtomobilinin ölkəmizin avtomobil bazarında qiyməti 219 min AVRO, yaxud, 452 min manatdır.

Top onluğun ən bahalı doqquzuncu avtomobili “Mercedes-Maybach S 560” hesab olunur. Mühərrikinin həcmi 5,6



litr olan bu sedan avtomobili 470 at gücünə malidir. Avtomat sürətlər qutusu ilə təchiz edilən bu avtomobil 258 min ABŞ dollarına, yaxud, 438,5 min manata müştərilərə təklif olunur.

Nəhayət, ölkədəki bahalı avtomobillərin top inluğunda sonuncu, onuncu yerdə “Aston Martin Vantage” avtomobili-



dir. Mühərrikinin həcmi 4,0 litr olan bu kupe avtomobili 503 at gücündədir. Avtomat sürətlər qutusu ilə təchiz edilən “Aston Martin Vantage” avtomobili ölkənin avtomobil bazarında müştərilərə 245 min ABŞ dolları, yaxud, 416,5 min manata satılır.

Nəzərə alsaq ki, digər alqı-satqı mübadilələri məkanı kimi avtomobil bazarı da tələb və təklifdən bilavasitə asılıdır, deməli, qiymətlərin, eləcə də sıralamanın dəyişməsi mümkündür. Hər bir halda, yəni, qiymətlərində müəyyən qədər fərqin olmasından və beləliklə də sıralamada yerinin dəyişməsindən asılı olmayaraq sadalanan avtomobillərin Azərbaycanın avtomobil bazarında ən bahalı avtomobillər olması günümüzün reallığıdır.

Avtomobil həvəskarı olan və avtomobilə yiyələnmək istəyən hər kəsə belə avtomobillərə sahib olmağı arzulayırıq.

***İnam Hacıyev***

## Bank sahibinin oğlu ev dustağı oldu

**Bir müddət əvvəl bağlanan “AmrahBank”ın sahibi Yunis İldırımzadənin oğlu Ülvi İldırımzadə ev dustaqlığına buraxılıb. SİA-nın verdiyi xəbərə görə, ötən ilin yayında həbs edilən Ü.İldırımzadənin ev dustaqlığına buraxılması üçün vəkili İlkin Ələsgərov məhkəməyə vəsatətlə müraciət edib.**



Fevralın 11-də Səbail rayon məhkəməsinin hakimi Ülviyyə Şükürova vəsatəti təmin edib və Ü.İldırımzadə ev dustaqlığına buraxılıb. Ü.İldırımzadə “AmrahBank”ın Müşahidə Şurasının sədri, atası Yunis İldırımzadənin müşaviri olub. O, bank bağlanandan sonra Dövlət Təhlükəsizlik Xidmətinin apardığı yoxlamalar nəticəsində saxlanılıb.

Qeyd edək ki, Yunis İldırımzadənin əmisi Yusif İldırımzadə Xətai rayonunun keçmiş prokuroru olub. O, sabiq daxili işlər naziri Ramil Usubovun qudasıdır. Xatırladaq ki, “AmrahBank” ötən il aprelin 28-i bağlanıb.

# Turizm sənayesində COVID-19 pandemiyasının yaratdığı böhran



Azərbaycan iqtisadiyyatının strateji istiqaməti sayılan turizm sektorunda aparılan islahatlar son illər öz nəticəsini verib. Ölkəmizdə turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb və Azərbaycan dünyanın turizm ölkələrindən birinə çevrilib. Ən məşhur brend şəbəkəli mehmanxanalar bu gün ölkəmizdədir və bunlar dünyanın ən sayılıb-seçilən hotelləri ilə müqayisədə diqqətçəkəndir. Ənənəni, yenilikləri, müasir dəbdəbə və qədimlik çalarlarını özündə birləşdirən otellər turistlərin böyük marağına səbəb olur. Bu dünya mətbuatında dərc olunun məqalələrdə, hazırlanan reportajlarda, mütəxəssislərin dəyərli fikirlərində öz əksini tapır. “Excelsior Hotel Baku”, “Kempinski Hotel-Badamdar”, “Hilton Baku”, “JW Marriott Abşeron”, “Four Seasons Hotel Baku” və başqaları Azərbaycanın böyük turizm potensialına malik olduğunu təsdiqləməklə yanaşı, respublikamızın dünyanın elit turizm mərkəzlərindən birinə çevrilməsində əhəmiyyətli rola malikdir. Ötən dövrlə müqayisədə ölkəmizdə geniş imkanların yaradılması məhz ölkəmizi turistlər üçün ən əlverişli istirahət məkanına çevirib. Ölkəmizdə bütün sahələrdə paralel olaraq aparılan inkişaf öz bəhərsini verib. Azərbaycanda yeni aeroportların tikilməsi beynəlxalq hesabatlarda Azərbaycan hava xidmətlərinə görə 11-ci yerdə olduğunu göstərir. Təbii ki, Azərbaycanda turizmin inkişafı baxımından imkanlar genişdir və mövcud şərait turistlərin ildənilə sayının artmsına səbəb olmuşdu. 2019-cu ildə ölkəmizə 3 milyon 170 min turist səfər etmişdi və onlar da ölkəmizdə 4 milyard manatdan artıq pul xərcləmişdilər.

### 2020-Cİ İL TURİZM TARİXİNİN ƏN ÇƏTİN İLİ OLDU

Koronavirus (COVID-19) pandemiyasının yaratdığı böhran nəticəsində turizm sektorunda tənəzzül müşahidə olunub. Bu, təkcə Azərbaycanda deyil, bütün dünyada müşahidə edildi. Ümumilikdə ötən il qlobal turizm tarixinin ən çətin ili hesab olunur. Pandemiya səbəbindən ölkələr arasında hava, quru və dəniz nəqliyyatı əlaqələrinin qapadılması, turist səfərlərinə tətbiq edilən qadağalar turizm sektoruna mənfi təsir göstərib. 2020-ci ilin mart ayından başlayaraq Azərbaycanda bu sahədə ciddi tənəzzül davam edib. Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə ölkəmizlə qonşu dövlətlərlə, o cümlədən dünya ölkələri ilə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması turizmə təsirsiz ötüşmədi. Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması 2020-ci ilin aprel-dekabr aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb oldu. Ötən il Azərbaycana 795,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Onu da bildirək ki, baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilib. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən mehmanxanalarda keçirilmiş gecələmələrin sayı 2019-cu illə müqayisədə 5,4 dəfə azalaraq 416,7 min olub ki, bu da ümumi gecələmələrin 41,7 faizini təşkil edir.

### QLOBAL PEYVƏNDLƏNMƏ SƏRHƏDLƏRİN TEZLİKLƏ AÇILMASINDAN XƏBƏR VERİR

Təbii ki, Azərbaycan yaxın gələcəkdə daha böyük turizm imkanlarına malik olacaq. Pandemiya ilə əlaqədar olan qadağalar aradan qaldırılacaq və ölkəmiz təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə dünyanın diqqətini özünə daha da cəlb edəcək. Artıq Azərbaycanda koronavirusun yayılma dinamikasında müəyyən stabillik müşahidə olunur. Bu sevindirici bir haldır. Ölkəmizdə sərtləşdirilmiş xüsusi karantin rejiminin müəyyən qədər yumşaldılması və məhdudiyyətlərin bəzilərinin ləğv edilməsi, eləcə də şəhərlərarası və rayonlararası hərəkətin bərpa olunması regionlardakı hotellərdə canlanma səbəb olub. Əlbəttə ki, təhlükəsizlik tədbirlərinə əməl olunmasa, yenidən biz əvvəlki vəziyyətə qayıda bilərik. Sosial məsafənin gözlənilməsi, tibbi maska və digər qoruyucu vasitələrdən, dezinfeksiyaedici məhlullardan istifadə mütləqdir. Təbii ki, vaksinləşmənin qlobal olaraq başlaması bizdə sərhədlərin tezliklə açılmasına ümidi artırır.

İşğaldan azad olunan torpaqlarımızda yeni həyat canlanacaq. Turizm imkanları genişlənəcək. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində azad olunmuş torpaqlarda əsas fəaliyyət sahələri kimi kənd təsərrüfatı və turizm sahəsini qeyd edərək, Qarabağ bölgəsinin çox zəngin turizm potensialı olduğunu bildirib. Mövcud şərait həmin məkanların Azərbaycanın əsas turizm zonalarından birinə çevilməsinə səbəb olacaq. Kəlbəcərin İstisuyu, Şuşanın, Ağdamın sanatoriyaları, Turşsu yaylaqları, İsa bulağı, Cıdır düzü və onlarla belə məkanlar sağlamlıq turizminin, eləcə də istirahət üçün nəzərdə tutulan istirahətləri kekirilməsi üçün olduqca əlverişlidir. Xatırladaq ki, sovet dövründə Azərbaycan səyahətə gələn turistlərin əsas hissəsi bu cənnət məkanına üz tutublar. 1970-ci illərdən başlayaraq yaradılmış turizm istirahət müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib.

Artıq Beynəlxalq sərgilərdə Qarabağ bölgəsinin turizm potensialı nümayiş olunur. Belə ki, bu yaxınlarda COVID-19 pandemiyası səbəbilə virtual formatda təşkil olunan Dubayda keçirilən “Gulf Travel Show” sərgisində işğalçılardan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialı haqda məlumat verilib. Londonda keçirilən dünyanın tanınmış turizm sərgilərindən olan Dünya Səyahət Bazarı sərgisində COVID-19 pandemiyası ilə əlaqədar olaraq virtual formatda keçirilən sərgi çərçivəsində Dağlıq Qarabağ və ətraf rayonların turizm potensialı, təhlükəsizliyin təminindən və infrastrukturun yaradılmasından sonra regionun yeni turizm destinasiyası kimi təqdimatı barədə iştirakçılara məlumat verilib.

Bütün bunlar yaxın gələcəkdə Azərbaycanın turizm sənayesinin daha da inkişafına böyük təsir göstərəcək və ölkəmiz bütün qitələrdən turistləri yüksək səviyyədə qarşılamaq imkanına malik olacaq.

*Nəzakət ƏLƏDDİNQIZI*

## “Azad edilən torpaqlarda görülən işlər, həyata keçirilən layihələr dövlətimizin gücünü bir daha göstərir”

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri həmişə böyük maraq və ruh yüksəkliyi ilə qarşılanır. Dövlətimizin başçısının hər səfəri həm də böyük əhəmiyyət daşıyan əlamətdar hadisələrlə yadda qalır. Azərbaycan Prezidentinin budəfəki səfərində də ilkin infrastruktur layihələrinin təməlqoyma mərasimlərinin keçirilməsinin və açılışının şahidi olduq. Dövlətimizin başçısı qeyd etdiyi kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. İşğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir.



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tamam Cəfərova deyib.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaqla, yeni dəmir yolu infrastrukturunun yaradılması işini başlatmış oldu. Heç şübhəsiz, bu sektorda ən böyük layihə Azərbaycanı Naxçıvanla birləşdirəcək Mehri nəqliyyat-kommunikasiya infrastrukturu olacaq ki, hazırda bunun üçün hazırlıq işləri aparılır. Bunu strateji əhəmiyyət daşıyan layihə kimi dəyərləndirən dövlətimizin başçısı onun qardaş Türkiyə ilə Azərbaycan arasında xüsusi əhəmiyyətli kommunikasiya olacağını da bildirdi.

“Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının (SES) açılışında iştirak etdi. Bu, işğaldan azad olunan rayonlarda dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. “Güləbird” SES-nin istifadəyə verilməsi ilə 7 min nəfər elektrik enerjisindən faydalanacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək. Laçında, Kəlbəcərdə mövcud olan SES-lərin yenidən qurulması, eləcə də “Xudafərin” və “Qız qalası” su elektrik stansiyalarının tikilməsi işğaldan azad olunmuş ərazilərdə generasiya gücünün qısa zamanda 240 meqavata çatdırılmasına imkan verəcək. Bu da çox böyük gücdür”, - deyə Tamam Cəfərova qeyd edib.

“Ağıllı kənd” layihəsinə toxunan deputat diqqətə çatdırıb ki, yeni bərpa layihələri yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələri kimi mühüm prinsiplər üzərində qurulacaq. Onun sözlərinə görə, müharibənin başa çatmasından cəmi 3 ay keçməsinə baxmayaraq, qısa müddətdə xeyli iş görülüb. Görülən işlər, həyata keçirilən layihələr dövlətimizin gücünü göstərən amillərdəndir. Bütün bunlar onu deməyə əsas verir ki, cəmi 44 gün ərzində ərazi bütövlüyünü bərpa edən Azərbaycan həmin torpaqlara böyük qayıdışı qısa zamanda təmin edəcək.

Tamam Cəfərova, eyni zamanda, deyib: “Prezident İlham Əliyev Qarabağın bərpası ilə bağlı geniş layihələr haqqında məlumat verməklə bərabər, həm də düşmənə də xəbərdarlıq mesajları göndərdi. Dövlətimizin başçısı mesaj verdi ki, Azərbaycanı növbəti təxribatlar və müharibə ilə hədələməyə çalışanlar “dəmir yumruğun” yerində olduğunu unutmamalıdır. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Biz heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi yenidən baş qaldırsın.

Azərbaycan hazırda heç vaxt olmadığı qədər güclü dövlətdir və heç bir qüvvə onu sarsıda bilməz. Qarabağın bərpası və burada həyata keçirilən infrastruktur layihələri nəticəsində dövlətimiz daha da güclənəcək”.

# Rusiya-Azərbaycan sərhədində saxlanılan 7 Azərbaycan vətəndaşına qarşı açılan cinayət işinə xitam verilib

**Dağıstanda saxlanılan 7 Azərbaycan vətəndaşına qarşı cinayət işlərinə xitam verilib.**

Azərbaycanın Rusiyadakı Səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, həmin şəxslər azadlığa buraxılıb. Məlum olduğu kimi, 2020-ci il iyun ayının 15-də Rusiya-Azərbaycan sərhədindəki iğtişaşlar zamanı Azərbaycan Respublikasının 10 vətəndaşı - Ceyhun Namazov, Elbrus Əhmədov, Nahid Ağayev, Əziz Fərəczadə, Elmar Mehdiyev, Tural Qiyasov, Elmar Musayev, Ənvər Muradov, Rövşən Hüseynov və Emin İmaməliyev Rusiya Federasiyasının hüquq-mühafizə orqanları tərəfindən tutulmuşdu.



Bütün bu müddət ərzində bu məsələ səfirlik tərəfindən ciddi nəzarətdə saxlanılırdı. Diplomatik nümayəndəliyin əməkdaşları tərəfindən həm tutulanlar, həm də Rusiyanın müvafiq dövlət orqanlarının nümayəndələri ilə görüşlər keçirilib, səfirliyin səlahiyyətləri çərçivəsində vətəndaşlarımıza hərtərəfli yardım göstərilib.

“Nəzarətə alınan 7 vətəndaşa - D. Namazov, E. Əhmədov, N. Ağayev, A. Fərəczadə, E. Mehtiyev, T. Qiyasov və E. Musayevə qarşı cinayət işlərinə xitam verildiyini və bu şəxslərin azadlığa buraxıldığını bildiririk. Vətəndaş Ənvər Muradov, Dərbənd Rayon Məhkəməsinin qərarı ilə Rusiya Federasiyası Cinayət Məcəlləsinin 318.2-ci (hakimiyyət nümayəndəsinin vəzifə borcunun icrası ilə əlaqədar olaraq ona və ya onun yaxınlarına qarşı həyat və ya sağlamlıq üçün təhlükəli zor tətbiq etmə) maddəsi ilə ümumi rejimli cəzaçəkmə müəssisəsində 1 il azadlıqdan məhrum etmə cəzasına məhkum edilib. iş vəzifələrinin icrası ilə əlaqədar məmur və ya yaxınları). İş vəkilin apelyasiya şikayəti üzrə hökmün yenidən baxılması üçün Dağıstan Respublikasının Ali Məhkəməsinə göndərilib”, - deyə məlumatda bildirilir.

İki vətəndaş - Rövşən Hüseynov və Emin İmaməliyevə gəldikdə, ittihamların həcmi ilkin istintaq zamanı dəyişdirilib. Onların hərəkətləri Rusiya Federasiyası Cinayət Məcəlləsinin 318.2-ci maddəsinə əsasən müəyyən olunur və ittiham aktlarının onlara təqdim edildikdən sonra cinayət işləri müvafiq olaraq fevralın 19-da və martın 5-də mahiyyəti üzrə baxılması üçün Dağıstan Respublikasının Mahərrəmkənd Rayon Məhkəməsinə göndəriləcək. Bu şəxslər hazırda ev dustaqlarıdır. Səfirlik bu məsələni diqqət mərkəzində saxlamağa davam edəcək və qarşıdakı məhkəmə iclaslarının təfərrüatları barədə əlavə olaraq açıqlama verəcək.

# "Sosial şəbəkə platformaları çərçivələri aşır"

**"Sosial şəbəkələr mahiyyət etibarilə sərbəst fikir paylaşımı platformasıdır. Təhqir, böhtan, nifrət çıxışı, başqalarının şəxsi həyatına müdaxilə isə "fikir", "ideya" deyil, hansısa çirkin məqsədlərin həyata keçirilməsi üçün istifadə edilən mexanizmdir; başqalarının hüquqlarının pozulmasına yönəlmiş aktdır.**



Belə daranışlar qanunvericiliklə yasaqdır, təhqir, böhtan, nifrət çıxışı dünyanın bütün ölkələrində qanunla yasaqlanır, yolverilməz sayılır". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini, media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, burada ikinci bir məqam da var: sosial şəbəkə istifadəçiləri bu platformalarda təkcə şəxsi fikir müəllifi kimi çıxış etmirlər, həm də yaratdıqları sosial şəbəkə hesablarını KİV qurumu kimi təqdim etməyə çalışırlar: "Yeni, paylaşdırları şəxsi fikirlərini KİV məhsulu-informasiya, məqalə, reportaj kimi təqdim edirlər. Bu da insanları çaşqın salır: anlamaq olmur ki, sosial şəbəkə istifadəçisinin hesabından yayılmış "məlumat" onun şəxsi fikridirmi, yeni subyektiv mülahizələr üzərində qurulubmu, yoxsa "araşdırılmış", "dəqiqləşdirilmiş", "düzgünlüyü isbatlanmış" xəbərdir. Qanunvericilik şəxsin şəxsi fikri ilə KİV məhsulu-xəbər, məlumat, informasiya arasında sərhədləri müəyyən edir. KİV məhsulu, yəni xəbər, informasiya, reportaj, müsahibə standarta uyğun hazırlanmalıdır, içində təhqirə, böhtana yol verilməməlidir, digər amillər də nəzərə alınmalıdır. Söz yox ki. təhqir və böhtanın yolverilməzliyi təkcə KİV məhsulu üçün deyil, həm də şəxsi çıxışlar üçün keçərlidir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 147-148-ci maddələr sosial şəbəkə istifadəçilərinin paylaşımlarında da təhqir və böhtanın yolverilməzliyini ehtiva edir. Təəssüf ki, bu gün sosial şəbəkə platformaları bu çərçivələri aşır, qanunların tələblərinə məhəl qoymurlar".

M.Ələsgərli onu da bildirdi ki. məsələnin ikinci tərəfi ondan ibarətdir ki, sosial şəbəkə adminləri də bu problemlərin qarşısının alınmasında maraqlı görünmürlər: "Əvvəllər fikir bu idi ki, sosial şəbəkə platformaları çox böyük areallı əhatə etdiyi üçün tənzimlənməsi çətindir, qanun pozuntularının qarşısını almaq imkansız olur. Amma bu gün bəlli olur ki, onlar tənzimləmədə maraqlı görünmürlər, xaotik durumun davam etməsində maraqlıdırlar. Öz istəkləri olanda tənzimləməni çox rahatlıqla tətbiq edə bilirlər. Tvitter, Facebook və instaqram ABŞ-ın keçmiş prezidenti Donald Trampı cəzalandıraraq onun hesablarını donduranda bu fakt bir daha təsdiqini tapdı. Bunları nəzərə alaraq, dünya dövlətləri artıq sosial şəbəkələrin tənzimlənməsi üçün təşəbbüslər irəli sürürlər, öz ərazilərində qanunlar qəbul etməklə, sosial şəbəkə platformalarını lokal səviyyədə də olsa, tənzimləmə altına ala bilirlər. Rusiyada, Türkiyədə, Almaniyada, Fransada olan nümunələr bunu təsdiq edir. Deməli olar ki, indi dünyada sosial şəbəkələri lokal səviyyədə tənzimləmək yönündə presedent var. Güman edirəm ki, Azərbaycanda da bənzər anunların qəbul edilməsinə, sosial şəbəkələrin heç olmazsa, okal şəkildə tənzimlənməsini həyatav keçirməyə ehtiyac var".

*Gülyana*

## YAP Qusar rayon təşkilatı partiya veteranını təltif etdi



YAP Qusar rayon təşkilatı Əcəxür kənd ərazi ilk partiya təşkilatının sədri, partiya veteranı İbramxəlilov Hacıkamal Nurəddin oğlunu anadan olmasının 70 illiyi münasibətilə Fəxri Fərmanla təltif etmişdir.Uzun illər dövlət qulluğu ilə yanaşı, təşkilatın siyasi həyatında səmərəli fəaliyyətinə görə ərazi ilk partiya təşkilatının sədrinə minnətdarlıq bildirilmiş və yubileyi münasibətilə təbrik edilmişdir.

H.İbramxəlilov 1995-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü, 22 il ərazi ilk təşkilatın sədridir. Partiya veteranı yaradıcısı Ümummilli Lider Heydər Əliyev olduğu, Prezident İlham Əliyevin rəhbərlik etdiyi və Zəfər tarixinin yazılmasında müstəsna xidmətləri olan Yeni Azərbaycan Partiyasının üzvü olması ilə qürur duyduğunu bildirmişdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Türkiyə sərhədində beş rus terrorçusu tutulub

**Türkiyə Müdafiə Nazirliyi ölkənin cənubundan - Suriyadan qeyri-qanuni yolla Türkiyəyə keçməyə cəhd edən beş Rusiya vətəndaşını həbs edib. Verilən xəbərə görə, tutulanlardan birinin İŞİD terror qruplaşması ilə əlaqəli olduğu müəyyənləşib.**



SİA bu barədə rus mətbuatına istinadən xəbər verir. Hatay vilayətinin Narlija bölgəsindəki Türkiyə-Suriya sərhədində, Suriyadan Türkiyəyə qanunsuz keçməyə cəhd edən, altı nəfər tutulub. Tutulanlardan beş nəfəri Rusiya vətəndaşlarıdır. Həbs edilən Rusiya vətəndaşlarından biri İŞİD üzvü kimi axtarışa verilən qadındır.

Xatırladaq ki, İŞİD adı ilə tanınan terror təşkilatı 2006-cı ildə bir sıra terror qruplarının birləşməsi nəticəsində meydana gəlmişdi. Təşkilat, 2014-cü ilin yayında, İraqın şimal və qərbindəki genişmiqyaslı hücumlar zaman geniş nüfuz qazanmışdı. Xatırladaq ki, İŞİD kimi tanınan terror təşkilatı Rusiyada qadağan edilib.

*Ağasəf Babayev*

## YAP Suraxanı rayon təşkilatı hesabat yığıncaq keçirib

**Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının idarə heyətinin videokonfrans formatında 2020-ci ilin hesabatına həsr olunmuş görüşü keçirilib. Tədbir Vətən müharibəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.**





Daha sonra tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov iclasın gündəliyinidə duran məsələləri diqqətə çatdırıb. Rayon təşkilatı tərəfindən 2020-ci il ərzində görülmüş işlər haqqında geniş hesabat məruzəsi ilə çıxış edən V.Seyiov qeyd edib ki, tarixi zərurətdən yaranmış Yeni Azərbaycan Partiyası Ulu Öndərin xalqı qarşısında ən böyük xidmətlərindən hesab olunur. Cəmiyyətimizin sosial müdafiəçisi olan YAP bundan sonra da ölkəmizin inkişafı, cəmiyyətimizdə demokratik-sosial institutların fəaliyyəti və milli-mənəvi dəyələrin qorunması istiqamətində öz müqəddəs işinə davam edəcəkdir. Necə ki, doğma partiyamız 90-cı illərin əvvələrində dövlətçiliyimizin yenidən qurulmasında müstəsna rol oynayıb, bu gün də dövlət və dövlətçiliyimizin qorunması və inkişafı naminə töhfələrini verməkdədir.

2020-ci ildə görülən işlər haqqında ətraflı məlumat verən təşkilat sədri bildirib ki, YAP Suraxanı rayon təşkilatı 2020-ci ildə öz fəaliyyətini partiyanın proqram və nizamnaməsi çərçivəsində, eləcə də təşkilatın tədbirlər və iş planlarına müvafiq şəkildə, səmərəli və günün tələblərinə uyğun qurmuşdur: "Çox təəssüf hissi ilə deməliyəm ki, ötən ilin birinci rübündən sonra bütün dünyanı öz cənginə alan pandemiya təşkilatımızdan da yan keçməmişdir. Tədbirlər planında yazılmış bir çox tədbiri təəssüf ki, canlı ünsiyyət şəklində həyata keçirə bilməmişik. Zamanın diqtəsinə uyğun yeni iş perspektivi tərəfimizdən seçilmiş və müasir texnologiyanın bütün imkanları işimizdə tətbiq olunmuşdur. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin geniş kütlələr arasında yayılması və insanların maarifləndirilməsi istiqamətində 2020-ci ildə də uğurlu fəaliyyətimizi davam etdirmişik".

Rayon təşkilatının sədri onu da vurğulayıb ki, 2020-ci ildə təşkilatın fəalları tərəfindən dövlətimizin və dövlət başçımızın siyasətinin haqlı müdafiəsi üçün sosial şəbəkələrdə siyasi işin təşkili sahəsində ciddi işlər görülmüşdür: "Bir il ərzində istər pandemiya, istər Vətən müharibəsi, istərsə də digər mövzularda fəallarımız tərəfindən dövrü mətbuat vasitəsilə 100-dən artıq mövqe yazısı ilə çıxış edilmiş, televiziya kanallarına müsahibələr verilmiş, Facebook, tvitter, instaqram kimi sosial şəbəkə seqmentlərində yüzlərlə paylaşımlar edilmiş, sosial istiqamətli, maarifləndirici kampaniyalar təşkil olunmuşdur. Ümumilikdə YAP Suraxanı rayon təşkilatı tərəfindən 2020-ci il ərzində 105 tədbir keçirilmişdir ki, onlardan da 20-si tədbir qadınlar şurası ilə, 51 tədbir isə gənclər birliyi ilə birgə həyata keçirilmişdir".

Hesabat məruzə il ərzində keçirilmiş tədbirlərin fotolarından ibarət videoslayd formatında nümayiş etdirilmişdir.

YAP Suraxanı rayon təşkilatının şura üzvü İlahə Abdullazadə çıxış edərək ilk öncə 2020-ci ildə çağırılmamış qonaq olan koronavirus pandemiyasının Azərbaycanda da geniş vüsət alaraq yayılması və Cənab Prezident tərəfindən 2020-ci ilin məhz "Könüllülər ili" elan olunmasının əhəmiyyətinin pandemiya dövründə özünü daha bariz göstərməsindən bəhs edərək deyib ki, pandemiya dövründə yaşı 65-dən artıq olan təbəqənin günlük ehtiyaclarının qarşılaması, sosial yardımların, tibbi dezinfeksiya vasitələrinin vaxtında və istiqaməti üzrə daşınması, çatdırılmasını təmin etmək üçün YAP Suraxanı rayon təşkilatının gənc könüllülərdən ibarət operativ qrupu formalaşdırılmışdır və pandemiyanın ən qızğın olduğu bir dönəmində, "Sağlamlığımız milli həmrəyliyimizdədir", "Biz birlikdə güclüyük" adlı davamlılığa əsaslanan layihələr çərçivəsində 2000-ə yaxın ailəyə müxtəlif formatlı sosial xidmətlər göstərilmişdir. Qeyd edib ki, rayon təşkilatının gənclər birliyinin üzvləri, gənc fəalları azad olunmuş torpaqlarda həyatın yenidən canlanması, gənclər sahəsi, aqrar, neft, qeyri-neft sektoru, əhalinin müxtəlif təbəqələrilə işin qurulması, köçürülən əhalinin adaptasiya dövrünü uğurla başa vurması üçün lazım olan sosial-psixoloji tədbirlərin görülməsi, dövlət tərəfindən gələcəkdə istifadəsi nəzərdə tutulan potensial gənc kadr bankının yaradılması istiqamətində təkliflər paketi hazırlamışdır. Tədbirdə 23 saylı şəhər poliklinikası ərazi ilk partiya təşkilatının sədri Sənan Əliyev bildirib ki, "Covid-19" koronavirus pandemiyası dövründə vaksinasiya prosesinin rayon ərazisində kütləviliyin təmin olunması məqsədi ilə vətəndaşlar arasında maarifləndirmə işi təşkil yüksək səviyyədə həyata keçirilir.

Daha sonra Milli Məclisin deputatı Sevinc Fətəliyeva ötən bir il ərzində rayon təşkilatı ilə müxtəlif səpkili tədbirlərdə iştirak etdiyini vurğulayıb, istər pandemiya dönəmində, istərsə də Vətən müharibəsi zamanında YAP Suraxanı rayon təşkilatının fəaliyyətini qənaətbəxş qeyd etmişdir. Sonda rayon təşkilatının sədri bildirib ki, Cənab Prezidentin müvafiq Sərəncamı ilə 2021-ci il "Nizami Gəncəvi ili" elan olunmuşdur. Bununla əlaqədar YAP Suraxanı rayon təşkilatının ərazi ilk partiya təşkilatlarına, o cümlədən qadınlar şurasına və gənclər birliyinə keçiriləcək tədbirlərin istər canlı ünsiyyət, istərsə də onlayn formatında təşkil olunması ilə bağlı təkliflərin təqdim olunması tapşırılıb.

*Zümrüd BAYRAMOVA*

# AXC-Müsavat cütlüyü Qarabağı ermənilərə belə təhvil verdi!

## Erməni işğalçısı: "Sizə demirdimmi ki, Elçibəy bizim dostumuzdur"



**Müzəffər Ali Baş Komandanımız, Azərbaycan xalqının qalib Sərkərdəsi, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə səfəri zamanı çıxışlarında daim xatırladır ki, məhz AXC-Müsavat mənfur cütlüyü hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, iqtidarı ələ almaq üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər.**

Məhz onların hakimiyyətləri dövründə, daha dəqiq desək, silahlı iğtişaş və qiyam yolu ilə ələ keçirdikləri iqtidarları zamanı və sonrakı müddətdə Laçının, Şuşanın, eləcə də Qarabağın digər ərazilərin düşmənə təhvil verilməsi faktları kifayət qədərdir. Əbəs deyil ki, birinci Qarabağ müharibəsi dövründə, Laçının işğala məruz qaldığı vaxt döyüş mövqelərini tərk etmiş hərbçilərimizdən qalan silah-sursatları ələ keçirən erməni qəsbkarları və işğalçıları açıq-aydın şəkildə etiraf edirlər ki, həmin silahları onlara dostları Elçibəy (o zamankı prezident) hakimiyyəti buraxıb. "Sizə demirdimmi ki, Elçibəy bizim dostumuzdur", deyə erməni yaraqlısı həmin vaxt bildirir.

### Azərbaycan xalqı heç vaxt onların arzularının çin olmasına imkan və icazə verməyəcək!

Beləliklə, torpaqlarımızın düşmən işğalına məruz qaldığı bir dövrdə AXC-Müsavat cütlüyünün qaragüruhçu liderlərinin cəbhədəki silahlı tərəfdarlarını paytaxt Bakıya geri gətirmələri, bu minvalla hakimiyyəti devirmələri bütövlükdə Qarabağın itirilməsi ilə nəticəsini tapdı və bu cinayətlər ünsürlər hazırda özlərini "müxalifət liderləri" kimi zorla ictimai rəyə sırıyaraq, yenidən hakimiyyət hərisliyi ilə alışıb-yandıqlarını növbəti və müxtəlif xəyanətkar əməlləri ilə, düşmən dəyirmanına su tökmək cəhdləri ilə nümayiş etdirirlər. Təbii ki, Azərbaycan xalqı heç vaxt onların arzularının çin olmasına imkan və icazə verməyəcək, o cümlədən razı olmayacaq ki, artıq azad olunmuş Qarabağımızı yenidən bəd əməlləri ilə düşmənə təslim etsinlər.

### Zaman yalnız Azərbaycan xalqının və dövlətinin xeyrinə işləyir!

Digər tərəfdən, artıq küçədə 90-cı illər deyil, 21-ci əsrin ikinci onilliyidir və Azərbaycanda mövcud olan xalq-iqtidar vəhdəti heç vaxt olmadığı kimi sarsılmaz dayaqlara söykənib. Azərbaycan dövləti, Azəraycan zabiti və əsgəri misli görünməmiş şücaətlər göstərməklə mənfur düşməni Qarabağ torpaqlarından qovub və yerdə qalan tör-töküntüləri də çox qısa zamanda əbədi-əzəli torpaqlarımızdan rədd edilələcəklər. Zaman yalnız Azərbaycan xalqının və dövlətinin xeyrinə işləyir.

Sonda isə diqqətinizə təqdim etdiyimiz bu videolardakı kadrlardan da görürsünüz ki, AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün vətəndaş müharibəsinə gedib, günahsız qanların tökülməsinə səbəbkar olub və cəbhədəki mühüm mövqeləri tərk etdirərək hərbçiləri, hərbi texnikaları Bakıya doğru hərəkət etdirib, bu vasitə ilə qiyam törədərək, zor gücü ilə iqtidarı ələ keçirib.

***Rövşən RƏSULOV***

# Evlər bahalaşır - NİYƏ?

**Son 1 ayda mənzillərin qiymətində əsaslı dəyişikliklər var. Belə ki, 2020-ci ilin mənzil bazarının qiymət indekslərinə görə, yanvar ayının əvvəllərində ilkin bazarda mənzillərin qiyməti 0,1 %, təkrar bazarda isə 0,5 % aşağı düşüb. Lakin mütəxəssislər bildirir ki, vəziyyət dəyişib və hazırda eyni deyil.**



Eskpertlər bildirir ki, mənzil bazarında son aylarda artım müşahidə olunur. Qeyd edirlər ki, hazırda mənzillərin qiymətində 2-2.5%-ə qədər artım var. Bunun da səbəbi ipoteka bazarıdır. İpoteka bazarında aktivləşmə başlayan kimi mənzillərin qiymətində artım olur. Son bir ay ərzində ipoteka kreditləri açılıb. Mənzillərin qiymət fərqləri də ərazilərinə görə dəyişir".

Qeyd edək ki, ən baha mənzillər Səbail rayonunda yerləşir. Xüsusilə də, mərkəz küçələrdə yerləşən evlər. Məsələn, Nizami küçəsi boyunca yerləşən mənzillər bahalıdır. Ucuz evlər mərkəzdən olan uzaqlıq məsafəsinə görə dəyişir. Əsasən, Bakının qəsəbələrində, xüsusən, Sabunçu, Qaradağ rayonlarında ucuz evlərə rast gəlmək olar. Eyni zamanda mütəxəssislər qeyd edirlər ki, ucuz mənzillərin sayı azaldıqca, bahalı mənzillərin sayı artır. Bu da qiymətlərin çox düşməsinə imkan vermir.

# Aram Qabrelyanov: "Zirzəmi hardadır deyə, Nikol qorxudan sığınacağa qaçdı"

**"Dronun səsini eşidən Nikol kişi və qadınları yığışdıraraq bomba sığınacağına qaçdı". SİA xəbər verir ki, bu barədə Rusiyalı jurnalist, "İzvestiya" qəzeti redaksiyasının İdarə Heyətinin sədri Aram Qabrelyanov özünün Telegram kanalındakı səhifəsində yazıb.**



Rusiyalı jurnalist qeyd edib ki, onun Paşinyanın şəxsi qvardiyasındakı mənbəyi bir çox məlumatları çatdırıb, hansı ki, Ermənistanın baş naziri ictimaiyyətə bu haqda açıqlanmaqdan qorxur, ancaq o özü bunu söyləyəcək.

"2020-ci ilin oktyabrında Paşinyan guya böyük bir ali baş komandan kimi özünü göstərmək qərarına gəlib və bu məqsədlə Syunikdə dövlət qurumlarından birində böyük bir görüş təşkil edib. O, pafosla danışarkən və Syunikin müdafiəsini necə təşkil edəcəyi barədə hap-gop edərkən birdən göydə bir dron səsi eşidilib. Nikol vəhşi bir qorxu və dəhşət içində, "zirzəmi haradadır?", deyə bağırıb, sonra da kişi və qadınları bomba sığınacağına sürükləyib. Paşinyan gizlənmək üçün qaçarkən mühafizəçilər belə onunla çətinliklə ayaqlaşıblar. Nikol bir siçan kimi bomba sığınacağının küncünə əyilib, yalnız, "saxla, qoru, kömək et", deyə yalvarırmış. Mühafizəçilər belə ona ikrahla və utanc hissi ilə baxırlarmış. 5 dəqiqədən sonra dronun səsi itsə də, Nikol mühafizəçilərə qışqırırmış ki, təyyarəyə zəng vursunlar, səmanı nəzərdən keçirsinlər. Yalnız bir saat yarım sonra qorxu yaşadığı üçün dəhşət içində olan Nikol, "qorxudan paltarları, ayaqqabıları suya dönmüş halda" zirzəmidən çıxarılıb, maşına mindirilib, ona güllə keçirməyən jiletlər geyindirilib və İrəvana aparılıb", deyə Rusiyalı jurnalist, "İzvestiya" qəzeti redaksiyasının İdarə Heyətinin sədri Aram Qabrelyanov öz səhifəsində yazıb.

Göründüyü kimi, daim daxili auditoriyaya hesablanmış nitqlər söyləyən, pafosla danışan baş nazir Nikol Paşinyan Azərbaycan Ordusundan hansı şəkildə qorxub. Ümumiyyətlə, Azərbaycan tərəfinin gücünə, qüdrətinə bələd olan erməni baş nazirinin qorxusu başadüşülməndir. Çünki özünün və öz kimilərinin əsassız şəkildə şişirtdiyi erməni silahlı qüvvələrinin Azərbaycan Ordusu qarşısında dayana bilməyəcəyini Nikol əvvəlcədən də bilirdi. Hakimiyyətini qorumaq üçün və kimlərinsə xoşuna gəlsin deyə vədlər verən, müxtəlif aldadıcı çıxışlar edən Paşinyanın reallıqda qorxu içində olduğu bəlli idi, lakin Rusiyalı jurnalist Aram Qabrelyanov bu fikirləri bir daha faktlarla da təsdiqləyib.

***İnam Hacıyev***

# "Real həyatımızı qanunlar, adət və ənənələr tənzimləyir"

**"İKT-nin inkişafı ilə əlaqədar olaraq sosial şəbəkələr artıq insanların gündəlik həyat tərzinə çevrilmişdir. Artıq demək olar ki, həyatımız iki hissədən ibarətdir real və virtual. Real həyatımızı qanunlar, adət və ənənələr tənzimləyir". Bunu "Səs" qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.**



Onun sözlərinə görə, virtual həyatı isə mövcud qanunlar və adət ənənələr tam olaraq tənzimləyə bilmir. Məhz bu səbəbdən də biz çox vaxt virtual həyatımızda neqativ hallarla tez-tez rastlaşırıq: "Sosial şəbəkələrdə cinayətkar dəstələrin fəaliyyətin, terrorçuların, siyasət adı ilə anti-dövlət çıxışların, dini radikalların, qeyri-etik videoların və s. normal cəmiyyətə uyğun olmayan təhqiramiz statusların şahidi oluruq. Təbii ki, bu da normal qarşılana bilməz və cəmiyyət üçün böyük təhlükədir. Düzdür biz vətəndaşların böyük əksəriyyəti tərəfindən buna qarşı sosial şəbəkələrdə etirazların da olmasını izləyirik. Lakin elə o vətəndaşlar da təhqirə və qeyri-etik sözlərə məruz qalır. Təhqir edənlər sanki özlərini rahat olaraq cəzasız qalacaqlarına əmin kimi aparırlar. Xüsusən son zamanlar Azərbaycanın uğurlarını həzm etməyən, 44 günlük müharibə nəticəsində qazanılan Zəfər qələbəmizə kölgə salmağa çalışan anti-Azərbaycan qruplar heç bir normaya sığmayan danışıq tərzləri ilə, iftira və söyüşlə öz əvvəlki ampulalarını davam etdirirlər. Bu cür hərəkətlər real həyatda cinayət əməli hesab olunur və məsuliyyət cəlb edilir".

A.Xəlilov bildirdi ki. mövcud qanunlar virtual aləmə də aiddir: "Ancaq nədənsə bu insanlar tam olaraq qanunlara və adət-ənənələrə hörmət etmir. Hesab edirəm ki, İKT-nin inkişafı ilə əlaqədar olaraq qanunlarımızda dəyişikliklərə ehtiyac vardır. Bu qeyri normal fəaliyyətlərə qarşı sosial şəbəkələrdə qanunun tələbləri ilə mübarizə aparılmalıdır. Ümumiyyətlə bu istiqamətdə Beynəlxalq əməkdaşlıqlar çərçivəsində yeni addımlara ehtiyac var. Real həyatda olduğu kimi sosial şəbəkələrdə cinayət əməlinə yol vermiş insanlar da Beynəlxalq axtarışa verilməli onun virtual məkanda etdiyi cinayət əməli dəlil kimi təqdim edilməlidir. Kiminsə şəxsiyyətini təhqir etmək bütün dünya dövlətlərinin qanunlarında cinayət əməli hesab edilir. Eyni zamanda terrorçuluq və digər qanuna zidd əməllərdə. Bu gün əsasən ictimai nəzarət mexanizmi vasitəsilə sosial şəbəkələrdə baş verən qeyri-etik əməllər hüquq mühafizə orqanlarına çatdırılır. Düzdür Xüsusi Xidmət orqanlarının da nəzarəti mövcuddur. Lakin açığı etiraf edək ki, sosial şəbəkələr nəzarət siz poliqonu xatırladır. Bu istiqamətdə təcili olaraq qanunvericiliyin tələblərini artırmaq, xüsusi nəzarət mexanizmi yaratmaq lazımdır. Eyni zamanda ən vacibi ictimai nəzarət mexanizmləri də təkmilləşdirilməlidir. Bu istiqamətdə vətəndaş cəmiyyəti institutlarının xüsusən də QHT-nin rolundan istifadə olunmalıdır".

***Gülyana***

# Gürcüstan hər gün 5 milyon dollar itirir

**Koronavirus (COVID-19) pandemiyası səbəbindən tətbiq olunan lokdauna görə Gürcüstan gündə 16 milyon lari (təqribən 5 milyon ABŞ dolları) itirir. Bu barədə "Galt & Taggart" investisiya bankının hesabatında bildirilib. Sənədə əsasən, 2020-ci ildə Gürcüstan iqtisadiyyatına dəyən zərərin həcmi 1 milyard lari (təxminən, 304 milyon ABŞ dolları) təşkil edib.**



Bankın dəyərləndirmələrinə görə, fevralın 1-dən karantin tədbirlərinin mərhələli şəkildə aradan götürülməsinə baxmayaraq, koronavirus ciddi problem olaraq qalır. Hesabatda qeyd olunub ki, ötən il iqtisadiyyat 6,1% azalıb və ən böyük ziyan turizm sahəsinə dəyib. Bu sektorun 2021-ci ildə tədricən bərpası nəzərdə tutulub və ilin sonunda ölkənin turizmdən 1,2 milyard dollar gəlir əldə edəcəyi proqnozlaşdırılır.

# Əli Kərimli Sevinc Osmanqızı qarşıdurması...

## Yaxud "çörəkləri dizləri üstündə" olan xislətlilərin iç üzü...

**Dahilərin ermənilər haqqında dedikləri fikirləri oxuduqca dəhşətə yox, adi hal kimi qəbul edirsən. Çünki dünyada belə bir millət olmayıb, ancaq tör-töküntülərdən əmələ gəliblər.**



Bu gün Azərbaycanda "müxalifət" də heç onlardan geri qalmırlar - erməni həyasızlığı, təcavüzkarlığı, satqınlığı, alçaqlığı... o qədər həddini aşıb ki... Bu gün özünü "müxalifətçi" adlandıran, satqın, xəyanətkar, xarici beynəlxalq təşkilatların işlədilmiş alətinə çevrilən və "5-ci kalon" deyilən dələduzlar yığını - AXCP sədri Əli Kərimli və onun ipli kuklası, "Milli Şura"nın sədri Cəmil Həsənli, çörəyi dizinin üstündə olan satqın Gültəkin Hacıbəyli, ingilis ruporu, mənəviyyatsız Sevinc Osmanqızı və bu kimi vücudlar dünənə kimi "həmrəylikdən", xalqa, Vətənə "xidmətdən" danışırdılarsa, bu gün böyük şairimiz Mirzə Ələkbər Sabir demişkən: "çərxi-fələk tərsinə dövran edir". Özü də yaman edir. Bu, gözlənilən idi. Çünki mayası satqınlıqla yoğrulanların yolu olmur. Elə Əli Kərimli-Sevinc Osmanqızı kimi. Dünənə qədər Əli Kərimliyə mətbuat katibliyi edən Sevinc Osmanqızı AXCP-"Milli Şura" satqınlarına açıq-aşkar himayə də edirdi. "Bitərəf jurnalist" AXCP sədrinə, yaxud da Milli Şura funksionerlərinə haqlı sual ünvanlamaq üçün efirə qoşulan, obyektiv münasibət bildirmək istəyən tamaşaçıların səsini dərhal azaldır, guya bağlantıda problem var bəhanəsi ilə onların səsini kəsir, fikir bildirməsinə mane olurdu. Nəticə nə oldu?

### Əli Kərimli Sevinc Osmanqızını hədələdi...

Səbəb nə idi? Dünənə qədər AXCP sədri Əli Kərimliyə mətbuat katibliyi edən Sevinc Osmanqızı bu gün ölümlə hədələnir. Səbəb isə, həmişə olduğu kimi, "hər yerdə mən olmaq" iddiasında olan Ə.Kərimli S.Osmanqızının Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev və Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlunu efirə qonaq çağırması. Nəticədə "müxalifdəki dostları"ndan - AXCP-"Milli Şura"dakılar S.Osmanqızıya hücumlar edərək "səni çökdürəcəyik" sözləri ilə təhdid etmələri oldu. Bu isə, S.Osmanqızının, necə deyərlər, "lap cızdığını çıxardı". "Siz onda məni fiziki yox edəcəksiniz ki...",-deyə S.Osmanqızı Əli Kərimliyə sual edərək, bildirib ki, bu qısqanclıqla həqiqi müxalifət olub-olmamaq olmaz: "Belə iddialar düşərgəyə yalnız xələl gətirər".

Baş verən bu olaylardan sonra AXCP-"Milli Şura"nın sosial media resurslarından biri kimi tanınan "Osmanqızı TV" və Sevinc Osmanqızı ilə Əli Kərimli arasında ciddi qarşıdurmalar yaşanmağa başlayıb.

### Əli Kərimlinin "özündən müştəbehliyi" nə birinci, nə də sonuncudur...

Bu yerdə Sevinc Osmanqızıya bir məqamı xatırlatmaq istərdim. Bu, o Əli Kərimlidir ki, həmişə siyasi proseslərə təsir imkanlarını itirmiş, adi bir mitinqi keçirməyə cürət etməyən, "böyük iddialarla" çıxış etməklə, bütün gücü ilə təmsil etdiyi təşkilatlarda baş verənləri malalamağa, gündəmdən çıxarmağa çalışan "müxalifətçi" deyilmi? Özündən müştəbeh olan bu o Əli Kərimlidir ki, 28 ildən artıqdır ki, "özünəvurğunluq", "qeyri-təvazökarlıq" xəstəlikləri ilə qabarıq formada özünü təzahür edib. Ə.Kərimli üçün hər şey satmaq-satılmaqdır, çünki onun üçün hər şey çox ucuzdur. 28 ilə yaxındır ki, hakimiyyətə gəlmək eşqi ilə alışıb-yanan, bunun üçün istənilən addımı atmağa hazır olan, yeri gələndə ermənilərlə belə əməkdaşlıq etməkdən çəkinməyən (bu, həqiqətdə də belədir-R.H.) Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli qarşısına qoyduğu məqsəd və vəzifələri reallaşdıra bilmədikcə daha təhlükəli olmağa başlayır. AXCP sədri indi o qədər də təhlükəli olub ki, hətta yaxın ətrafına da hücum etmək, onlara zərər yetirməkdən belə çəkinmir. Ac-yalavac vəhşi heyvanlara xarakterik obrazı kimi ətrafında olan hər kəsə demək olar ki, saldıran, onlara zərər yetirən Kərimli nə etika nəzərə alır, nə böyük-kiçik, nə də müttəfiqlik. Yaxın tariximizdə qarşılaşdığımız situasiyalar, üzləşdiyimiz hadisələr belə deməyə əsas verir. Üzü Əbülfəz Elçibəydən bu tərəfə kimlərə xəyanət edib, onları zərərsizləşdirmək istəmədi, Əli Kərimli? Uzun illər eyni yolu gələn müttəfiqləri Mirmahmud Mirəlioğlu, İsa Qəmbər, İsgəndər Həmidov, daha kimlər-kimlər. Bütün inciklikləri, parçalanmalar da Kərimlinin tənqidə dözümsüzlüyündən qaynaqlandı. Özü də Kərimliyə xas olan qərəzçilikdən, qara yaxmaqdan, böhtan atmaqdan deyil, sağlam tənqiddən dolayı AXCP sədri ilə keçmiş müttəfiqlərinin yolu ayrıldı. Özünü "toxunulmaz" zənn edən, heç bir haqlı iradı qəbul etməyən Əli Kərimli indi də illər boyu katibəlik edən Sevinc Osmanqızıya edir. S.Osmanqızıya "mənim əleyhimə çıxışlar hazırlayırsan" ittihamı ilə hədələməsi bir daha onun iç üzünü açıq şəkildə göstərir.

### "Osmanqızı TV" Əli Kərimlinin üzünə bağlandı

Düşərgənin AXCP-"Milli Şura" üzvü olmayan cinahlarında fəaliyyət göstərən müxalifət təmsilçilərinin efirə qoşulmalarını həzm edə bilməyən cəbhəçilərin "lideri" Sevinc Osmanqızını sosial şəbəkələrdə təhqir hədəfinə çevirməklə, Osmanqızı TV", necə deyərlər resurslar olmayan Əli Kərimlinin üzünə qapısını bağladı.

S.Osmanqızı bu günə kimi, Əli Kərimlinin və ətrafının xəstə təfəkkürə məruz qalanlara hazırkı zamana qədər göstərdiyi xidmətinə görə peşman olduğunu deyib. Elə bu peşmançılıqdan sonra efirdə ayrıca verilişə - "səni çökdürəcəyik! Mənə hücumlar və mənim cavabım" adlı verilişlə efirə çıxaraq bəyan edib ki, bu gün resursları olmayan qüvvə - yəni AXCP və "Milli Şura" cütlüyü "ona səni çökdürəcəyəm" deyir

### Sonrakı peşmançılıq...

Bütün bunlardan sonra: "Yaxşı ki, bütün bunları gördüm",-deyərək özünə təsəlli verən Sevinc Osmanqızı ziyanın yarısından geri dönməyin də xeyir olduğu qənaətinə gələrək, gec də olsa anlayıb ki, bu vaxta qədər nə qədər kirli, xəyanətkar və satqınçılıq girdabında fəaliyyət göstərib.

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, belə bir hal Əli Kərimliyə qarşı birinci dəfədir ki, baş vermir və bu günə qədər yüzlərlə onu dəstəkləyən insanlar sonradan ondan imtina ediblər. Sevinc Osmanqızı da məhz həmin adamların sırasına daxil olan növbətisidir. Bir də, istər Sevinc Osmanqızı olsun, istər Əli Kərimlisi, Cəmil Həsənlisi, Gültəkin Hacıbəylisi, Qənimət Zahidi, Leyla Yunusu...bilməlidirlər ki, şübhəsiz ki, belə bir yolla məkrli niyyətin Azərbaycanda reallaşdırılması mümkün deyil. Çünki dövlətimiz ötən əsrin 90-cı illərinin əvvəllərindəki kimi gücsüz, kövrək vəziyyətdə deyil, həm siyasi, həm də iqtisadi cəhətdən güclü, beynəlxalq dairələrdə nüfuz sahibinə çevrilən lider dövlətlərdəndir.

Nəticə isə belədir - hazırda müxalifət düşərgəsində nüfuz savaşı gedir. Faktlardan da görünür ki, bu savaşların və qarşıdurmaların episentrində AXCP sədri Ə.Kərimli-Sevinc Osmanqızı dayanıb. Görünür ki, onun maraqlarına və planlarına kim mane olarsa, o, trol hücumlarına məruz qalar, təhqir və təhdid edilər. Deyəsən, "bu xəmir hələ çox su aparacaq".

***Rəfiqə HÜSEYNOVA***

# Sən demə, məğlub olan ermənilər deyilmiş...



"Ermənilərin xalq qəhrəmanlığı barəsində bir şey eşidən olubmu? Onların azadlıq uğrundakı mübarizələrinin adları harada həkk edilib? Heç yerdə! Çünki ermənilərin "qəhrəmanları" həmişə öz xalqlarının xilaskarlarından daha çox cəlladı olublar". Fikirlər rusiyalı hərbi diplomat Vladimir Mayevskiyə məxsusdur.

Təbii ki, ermənilərin himayədarı olan bir xalq nümayəndəsindən bu misalı əbəs yerə gətirmirik. Belə ki, ötən gün erməni telekanallarından birinə müsahibə verən sabiq ermənı prezidenti Serjik Sarkisyan "dərə xəlvət, tülkü bəy" deyimini əsas tutaraq yalan-palandan nə qədər var ermənilər üçün döşəyib. Sizi bilmirəm, amma mən onun "məğlubolunmaz Serjik" olduğunu indi bilmişəm. Sən demə, Azərbaycan tərəfi həmişə Serjikdən "qorxduğuna" görə, onunla cəngə girməkdən "ehtiyatlanıb".

Yadınızdadır, hələ, 1988-1990-cı illərdə Mixail Qorbaçovun göstərişi ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Xüsusi İdarəetmə Komitəsinə rəhbərlik edən rus əyyaşı Arkadı Volski də təkcə Serjin deyil, həm də bütün ermənilərin "qəhrəman bir xalq" olması barədə məlumatlı imiş. Ona görə də, həmişə təkcə azərbaycanlıları deyil, hətta rusları belə ermənilərlə ehtiyatlı davranmağa çağırırmış.

Təbii ki, bunlar ermənilərin özləri barədə dedikləri yalandan başqa bir şey deyil. Amma, məsələ bundadır ki, reallıqlar başqa şeylərdən xəbər verir. Bəli münaqişənin ilk günlərindən Qarabağda yaşayan azərbaycanlılardan ov tüfənglərinin belə yığışdırılması barədə göstəriş verən alkaş Arkadi Volski idi. Çünki ermənilər onun içkidən ayılmasına belə imkan vermirdilər. Əslində bu elə də bir önəm kəsb etmirdi: çünki Volski ermənilərdən ənam alan Raisa Maksimovnanın əmrini yerinə yetirirdi. Qeyd edim ki, mən burada elə də bir "evrika" açmıram. Amma bunu deməyə məcburam ki, həmin ərəfədə Mixail Qorbaçovun zövcəsinin kəsdiyi başa zaval yox idi. Bu barədə, gərək ki, çoxlarınız məlumatlı olmalısınız.

Burada mənim, vaxtilə ermənilər tərəfindən döyüşən krasnodarlı bir hərbçinin xatirələri yadıma düşür. O, etiraf edirdi ki, döyüş zamanı hansısa bir ərazini alıb ermənilərə təvil verəndən bir müddət sonra, yalın əlli azərbaycanlıların erməniləri həmən ərazilərdən qovub çıxardıqlarının şahidi olurduq. Həmən hərbci, etiraf edirdi ki, ermənilər qorxaq tülki kimi onlar tərəfdən döyüşən başqa xalq nümayəndələrinin arxasında gizlənirdilər. Qeyd edim ki, sonradan Kpasnodara qayıdan hərbçi bu fikirləri ermənilərin onun vətənində törətdikləri qanunsuz əməllərə münasibət bildirərkən demişdi.

Təbii ki, belə misalları Serjikə xatırlatmaq yersiz görünə bilər. Amma, oxuculardan üzr istəyib bu faktı söyləməliyəm: Serjik, məgər sağ qalmaq üçün öz qız və arvadlarınızı rus zabitlərinin (təkcə zabitlərininmi?) yatağına salan siz deyildinizmi. Deməli tarıx təkrarlanır. Vaxtılə avropalı dahinin sizin millət barədə dediklərinin şahidi təkcə biz yox, həm də sizin tərəfdən döyüşən bütün millətin nümayəndələr də bunun təsdiqini gördülər.

Cerjik, indi də, qayıdaq sənin "məğlubedilməz"liyinə. Adam erməni olanda nə olar, amma bu qədər də həyasız yox də... Deyirsən, hakimiyyətdə olduğun ərəfədə heç kim sənə qalib gələ bilməyib. Ruslara yalmanmağına, yalvarmağına bamayaraq, Azərbaycan tərəfi təkcə 2016-cı ilin Aprelində 4 gün ərzində Tərtərin Talış kəndi ətrafındakı yüksəklikləri, Seysulan kəndini, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyini, Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini, Tərtər rayonunun Qazaxlar kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində yollar düşməndən azad olundu.

Cerjik, bunlar faktdır. Sənin indi bunları danıb, ermənilər qarşısında öyünüb özündən qəhrəman yaratmağın yersizdir. Xatırlayıram ki, həmin ərəfədə yerli nəşrə açıqlama verən erməni generallarından biri "itirdiyiniz" Lələ təpə yüksəkliyinin vaxtilə sizlərə 400-dən artıq erməni-rus hərbçisinin ölümü hesabına başa gəldiyini bildirmişdi.

***Ağasif Babayev***

# AXC-Müsavat mənfur cütlüyünün xəyanətləri

**"Ona görə də, AXC-Müsavat mənfur cütlüyünün xalqımızın və dövlətimizin başına gətirdiyi bəlalar unudulmamalıdır, həmin illərdəki hadisələrin canlı şahidləri bütün baş vermiş prosesləri detallı şəkildə ictimaiyyətin diqqətinə çatdırmalı, xüsusilə də gənc nəsli maarifləndirməlidir. Bu gün youtube kanallarında xalqı, xüsusilə də gəncləri aldatmaq cəhdlərinə qarşı Vətənini, dövlətini sevən hər bir kəs barışmaz mövqe tutmalı və mübarizə aparmalıdır".**

Bunu "İki sahil"ə açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, 1992-ci ildə AXC-Müsavat mənfur cütlüyü hakimiyyət naminə Azərbaycanın torpaqlarını düşmənə təhvil vermək üçün bütün imkanlarını işə salmışdı: "AXC-Müsavat mənfur cütlüyü 1992-ci ilin may ayında yaranmış siyasi-hərbi fürsətdən istifadə etməklə, Şuşanın, Laçının müdafiəsində olan könüllü hərbi birləşmələri, silahlı qüvvələri bilərəkdən Bakıya gətirir və hakimiyyət uğrunda mübarizədə istifadə edirdi. May ayının 8-də Şuşanın, ayın 17-də isə Laçının Ermənistan tərəfindən işğal olunması AXC-Müsavat mənfur cütlüyünün siyasi hakimiyyəti ələ keçirməsi üçün düşmənlər qarşısında ilk "xidmətləri" idi. AXC-Müsavat mənfur cütlüyü həmin dövrdə Şuşada, Laçında müdafiədə dayanmaq əvəzinə may ayının 15-16-da Bakıda Ali Sovetin binasını tank, PDM, kalaşnikov, pulemyotlarla atəşə tutur, qardaş qırğını törədir, xalqın düşmənə müqavimət əzmini qırırdı".

Sədaqət Vəliyeva əlavə edib ki, AXC-Müsavat mənfur cütlüyünün tör-töküntüsü olan AXCP və Müsavat partiyası yaxın keçmişimizdə də Qarabağı hakimiyyət naminə "satışa" çıxarmışdı: "Xatırlayırsınızsa, 2010-cu ildə Müsavat partiyasının sədri İsa Qəmbər Almaniyanın Potsdam şəhərində Ermənistan Ümummilli Hərəkatının İdarə Heyətinin sədri Aram Manukyan ilə birgə qarşılıqlı əməkdaşlıq haqqında bəyannamə imzalamışdı. Bununla da Müsavat hakimiyyət naminə Qarabağdan imtina etdiyi barədə öhdəlik götürürdü. 2016-cı ilin sentyabr ayının 15-də isə AXCP sədri Əli Kərimlinin oğlu Türkel Kərimli separatçı Bako Saakyanın oğlu Aram Saakyanla ABŞ-da görüş keçirmişdi. Bu görüş də ata Kərimlinin adına olmuşdu və eyni ilə Müsavatın cəhdi təkrarlanırdı. Görürsünüz ki, AXC-Müsavat mənfur cütlüyünün tör-töküntüləri dövləti, torpağı satmağa öyrəşiblər. Heç şübhə yoxdur ki, bundan sonra da onlar xəyanət yolunu tuta, hakimiyyət naminə Qarabağı yenidən Ermənistana işğal etdirməyə şərait yarada bilər. Sadəcə onlar əlverişli məqam gözləyirlər".

# Qida bazarında nə baş verir?- Nəyi yemək olar, nəyi yox...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

Sosioloq: **"Bunların çoxu qida deyil, qidanın imitasiyasıdır"**

Qida texnoloqu: **"Süni qidalar və "fast-fud" yeməklər çox zərərlidir"**

Həkim: **"Xərçəng, şəkər, ürək xəstəlikləri əsasən, süni qidalarla bağlıdır"**

Ölkəmizdə qida məhsullarının keyfiyyəti ilə bağlı problemlər var. Mağazalarda satılan emal qidaların bəziləri keyfiyyətsiz, saxta və ya sağlamlıq üçün zərərlidir. Hətta, təbii hesab etdiyimiz kənd məhsullarında saxtakarlıq baş alıb gedir. Bu saxta qidalar, genetik modifikasiya olunmuş ərzaq məhsulları, həmçinin qida məhsullarına əlavə edilən çoxsaylı ultrakimyəvi qatqılar insanlarımızda ağır xəstəliklər yaradır, milli genefondumuza ciddi zərbə vurur. Bəs bunun qarşısını necə almaq olar, ekspertlər nə təklif edir? Bu yazıda bu məsələləri araşdırmışıq.

Ekspert: **"Vaxtı keçmiş məhsulların etiketi dəyişdirilir"**

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, təhlükəli və standartlara uyğun olmayan qidalar ciddi problemlər yaradır: "Təhlükənin mövcud olduğu əsas sahələrdən biri də süd və süd məhsullarıdır. Bu məhsulların hazırlanması prosesində standartların pozulması, tərkibinə kimyəvi maddələrin vurulması halları müəyyən edilib. Bu sahəyə ciddi nəzarət edilməlidir". Ekspertin fikrincə, kənd təsərrüfatı məhsullarına vurulan kimyəvi dərmanlar və kübrələr də ciddi xəstəliklər yaradır: "Biz bilirik ki, kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün müxtəlif gübrələrdən istifadə olunur. Məhsulların təkibindəki bəzi gübrələr insan həyatına mənfi təsir göstərir".

AİB sədri deyir ki, bu gün təhlükəli qida ilə bağlı ciddi məsələlərdən biri vaxtı keçmiş məhsulların sonrakı taleyidir: "Bizdə olan məlumatlara görə, distribütorlar vaxtı keçmiş məhsulların etiketini dəyişdirib yenidən istehlakçılara təqdim edirlər. Bu məsələnin həlli üçün yollar tapılmalıdır".

Qida texnoloqu: **"Süni kimyəvi qidalar sağlamlıq üçün təhlükəlidir"**

Qida texnoloqu Ağa Salamov isə hesab edir ki, emal olunmuş qidaların çoxunun tərkibi təbii komponentlərdən deyil, süni kimyəvi komponentlərdən ibarətdir. Sadəcə, həmin məhsulun dadını, rəngini verən qatqılar vurulur, istifadə müddətini artıran maddələr qatılır.

Texnoloq deyir ki, emal olunan qida məhsullarına əlavə olunan kimyəvi qatqı maddələri illər keçdikcə müxtəlif fəsadlar törədir ki, bu da il ərzində 600 milyon insanın zərərli qida istehlak etdikləri üçün müxtəlif xəstəliklərə yoluxmasına və 420 min insanın bu xəstəliklərə tab gətirməyərək ölməsinə səbəb olur.

Ekspertin fikrincə, "fast-fud" qidalar daha təhlükəlidir: "Beyində Oreksin maddəsinin səviyyəsini aşağı salan boş karbohidratlardır. Deməli insanlar boş karbohidratlardan da uzaq durmalıdır. Boş karbohidrat dedikdə, təbii ki, çipsilər, rəngli qazlı içkilər, emal olunmuş şəkər və un məmulatları və.s nəzərdə tutulur.

Həmçinin trans yağlar da şiş xəstəliklərinin yaranmasına səbəb olur. Hətta, bədənimizə lazım olan əvəzolunmaz yağ turşularını bizə vermir, əksinə, otaq temperaturunda donmuş halda olan trans yağlar insanlar üçün böyük təhlükə mənbəyidir".

Sosioloq: **"Bunlar qida deyil, qidanın imitasiyasıdır"**

Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Lalə Mehralı emal olunmuş qida məhsullarının daha təhlükəli olduğunu deyir: "Bazara ucuz məhsul çıxarmaq üçün emala məruz qalmış ərzaq məhsulunun başına elə oyunlar açılır ki, onlarda qidaya aid heç nə qalmır. Bu gün mağazalarda satılan məhsulların çoxunu qida saymaq olmaz, bunlar sadəcə qidanın imitasiyasıdır. Məsələn, limonadların, şirələrin 99 faizi kimyəvi maddələrdən ibarətdir. Ət və ət məhsullarında da ciddi problemlər var. Mal-qaraya və qoyunkeçiyə ət və südünün çox olması üçün kimyəvi yemlər verilir, hormonal iynələr vurulur. Kobasa-sosiska məmulatları barədə isə danışmağa dəyməz, bunlar təhlükəli məhsullardır".

Sosioloqun fikrincə, emal olunmuş qidaların içində ən təhlükəlisi süd məhsulları, xüsusən də yağlardır: "Qida bazarında əhaliyə təklif olunan yağların çoxu sünidir. Bəzilərinin tərkibi isə kanserogen palma yağı və ya spreddən ibarətdir. Bir çox süd məhsulları isə quru süddən, müxtəlif ultraximikatlardan, spredlərdən ibarətdir ki, bunları da qida saymaq olmaz.

Bitki yağları da eyni vəziyyətdədir. Mağazada günəbaxan tumunun kiloqramı 2,5 manata satılır, amma günəbaxan yağının litri 2 manatdan başlayır. Bu, nəzəri cəhətdən də mümkün deyildir. Deməli, bu, günəbaxan yağı deyil, naməlum kimyəvi maddədir. Qarğıdalı yağlarında da eyni vəziyyətdir. Bitki yağlarından yalnız bəzi zeytun yağlarını istisna etmək olar".

Ekspert: **"Zeytun yağlarının da hamısı təhlükəsiz deyil"**

Yeri gəlmişkən, Avropanın əksər ölkələrdə zeytun yağının qadağan olunan, zeytunun qalıqlarından alınan "Pomace" növü bu yağı istehsal edən ölkələr ucuz qıymətə Azərbaycana satırlar. Bakıdakı mağazalar da zeytunun "Pomace" növünü "endirim"lə satışını təşkil edirlər.

Bir neçə gün əvvəl AİB sədri Eyyub Hüseynov mətbuata verdiyi məlumatda qeyd etdi ki, zeytunun "Pomace" növü müxtəlif xəstəliklərə səbəb olur: "Zeytun yağının növləri var. Ən yaxşı zeytun yağı "Extravirgin"dir. Bu yağ rafinə olunmamış, soyuq sıxmadan əmələ gələn yağlardır. İlk sıxmadan əmələ gəlir. Zeytun yağının digər növü "Virgin" yağıdır. Zeytunun yağının sonuncu növü isə "Pomace"dir. Bu, əla növ zeytun yağı alınandan sonra müəyyən temperaturda saxlanılan zeytunun jımıxından yenidən sıxılaraq əldə edilən məhsuldur. Bu proses zaman məhsulun əhəmiyyətli maddələr itir. "Pomace" zeytun yağı jımıxdan hazırlandığı üçün müxtəlif xəstəliklər əmələ gətirə bilər. Məndə olan məlumata görə, Azərbaycanda "Pomace" zeytun yağları istehsal olunmur. Amma xarici ölkələrdən bu yağlar ölkəyə gətirilir. Yaxşı olar ki istehsalçılar rafinə olunmamış və soyuq sıxmadan əmələ gələr zeytun yağlarına üstünlük versinlər. Zeytun yağı alanda onun etiketinə baxsınlar".



Həkim: **"Süni qidalar orqanizmdə xərçəng yaradır"**

Həkim-konsultant Aynurə Hidayətqızı deyir ki, hazırda insanlar əvvəlkindən fərqli olaraq, daha çox emala məruz qalmış, kimyəvi qatqılarla zənginləşmiş süni qidalar qəbul edirlər: "Müasir dövrdə daha çox orqanizmdə həll olunmayan, yanmayan və ya həll olsa belə zərərli maddələrlə zəngin olan qida qəbul olunur. Orqanizm isə bunları qida kimi tanımır və oradan özünə lazım olan maddələri ala bilmir. Hüceyrələrin funksiyası pozulur, şlaklar yaranır, immunitet zəifləyir və nəticədə xərçəng və s. xəstəliklər yaranır".

Həkim insanlarımızı mümkün qədər mağazalardakı paketlənmiş yerli və xarici qida məhsullarından az istifadə etməyə, ərzaq ehtiyaclarını daha çox kəndlərdən gətirtdikləri məhsullarla ödəməyə çağırıb: "Broyler toyuğu və yumurtasından, həmçinin kolbasa-sosiska məmulatlarından, limonadlardan, enerji içkilərindən istifadəni məsləhət görmürəm. Şəkər, ağ çörək, duzdan istifadəni minimuma endirsinlər. İmmuniteti gücləndirmək, orqanizmi toksinlərdən təmizləmək üçün yabanı bitkilər, çiçək çayları, təbii bal, limon, zəncəfil, sirkə kimi məshullardan gündəlik istifadə. Təbii müalicə metodları tətbiq edərkən, mütləq həkimlə məsləhətləşsinlər".

Mütəxəssis valideynləri özlərini və sağlamlıqlarına cavabdeh olduqları uşaqlarını qorumağa çağırıb: "Artıq körpə uşaqlarda belə ağlasığmaz xəstəliklər yaranır. Xərçəng, şəkər, ürək xəstəlikləri baş alıb gedir. Valideynlər hər əllərinə keçəni, hər mağazada satılanı uşaqlara yedirtməli deyillər. Uşaqların qidalanmasına nəzarət gücləndirilməlidir. Onları kimyəvi mağaza şirniyyatlarına yox, meyvələrə öyrətsinlər. Əks halda, xəstəliklərlə qarşılaşmaları tezləşəcək".

**Kənd məhsullarında da saxtakarlıq baş alıb gedir**

Bütün qida ekspertləri, həkimlər təbii kənd məhsullarından istifadəyə çağırır. Lakin kənd məhsullarında da probemlər var. Əksər tərəvəzlərin geni dəyişdirilib. Meyvələrin isə müəyyən hissəsi transgendir. Taxılın xromosomları 15-20-dən 40-50-yə qaldırılıb ki, bu da insanın gen strukturunu dağıdır.

Son vaxtlar mağazalardakı vəziyyətdən xəbərdar olan insanlar kənddən gətirilən məhsulları almağa üstünlük verməyə başlayıblar, lakin bundan istifadə edən işbazlar kənddən gətirmək adı ilə saxta və süni məhsuları əhaliyə sırıyırlar. Hətta bu işlə məşğul olan şəbəkə var. Onlar gizli sexlərdə süni nehrə yağları, kimyəvi maddədən və quru süddən süd və süd məhsulları, broyler yumurtalarından torpağa bulaşdırmaqla "kənd yumurtası düzəldir", bunları bəzi adamlar vasitəsilə köhnə maşınlarda mağazalara göndərir və həyətlərdə təbii kənd məhsulu adı ilə satdırır.

Maraqlıdır ki, ən ucuz halda nehrə yağının kiloqramı 15 manatdan baha başa gəldiyi halda, bu saxta nehrə yağları 6-10 manat arasında satılır. Mağazada paket südlərin litri 1,5 manatdan baha olduğu halda bu südlər 1 manatdan satılır. Kliloqramı 3-4 manata satılan pendir, kəsmik, qaymaq, smetan kimi süd məhsullarının çoxu süni maddələrdən hazırlanır.

Bu problemin həlli üçün müvafiq orqanlar tərəfindən mütamadi olaraq tədbirlər həyata keçirilsə də, qarşını almaq mümkün olmayıb. Ona görə də, istehlakçılar diqqətli olmalı, qəbul etdikləri ərzağın mənşəyi, keyfiyyəti və tərkibini bilməlidirlər.

***Elçin Bayramlı***

ARAŞDIRMA

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

18 fevral


QARABAĞ AZƏRBAYCANDIR!

## Çempionlar Liqası: "Barselona" öz meydanında biabır oldu!



Futbol üzrə UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinə start verilib. İlk oyun günündə iki matç keçirilib. Böyük maraqla gözlənilən görüş İspaniyada olub. Burada "Barselona" son mövsümün finalçısı PSJ-ni qəbul edib. Bir çoxları bu qarşılaşmada Messili "Barselona"nın qalib gələcəyini düşünsələr də, nəticə tam əksinə olub. İspaniya təmsilçisi öz meydanında Fransa təmsilçisinə biyabırçı hesabla məğlub olub. "Barselona"lı futbolşular pike və Qrizmannın bir-birlərini meydanda ağır söyüşlərlə təhqir etmələri də meydan sahiblərinə kömək edə bilməyib. Əvəzində bu qarşılaşma qonaqların 4:1 hesablı qələbəsi ilə başa çatıb.

Eyni saatda başlayan digər qarşılaşmada isə, "Leypsiq" "Liverpul"u qəbul edib. Koronavirus pandemiyası üzündən Almaniyaya gedə bilməyən Yurgen Kloppun komandası rəqibi ilə Macarıstanın paytaxtı Budapeştdə qarşılaşıb. Bu oyunda da qonaqlar qələbə qazanıb - 2:0.

## "Carnavales de Gran Canaria 2021" şahmat turnirinin qalibi müəyyənləşib



Blits üzrə onlayn formatda keçirilən "Carnavales de Gran Canaria 2021" turnirinə yekun vurulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan şahmatçılarının da iştirak etdikləri yarışda 11 turdan 10 xal toplayan hindistanlı qrossmeyster Raunak Sadvani qalib adını qazanıb.

Şahmatçılarımız arasında ən yüksək nəticəni Vüqar Rəsulov və Zaur Məmmədov göstəriblər. Onlar 9 xalla ilk onluqda yer alıblar. "Lichess.org" platforması vasitəsilə keçirilən yarışda 600-dən çox şahmatçı iştirak edir.

## Yuxusuzluqdan əziyyət çəkirsiniz?- Çobanyastığı çayı için

**Bitki çaylarının hər biri fərqli və özünəməxsus müalicə xüsusiyyətlərinə malikdir. Belə ki, yaşıl çay dişlərin çürüməsinin qarşısını alır, metabolizmi sürətləndirir, arıqlamağa kömək edir, immun sistemini gücləndirir.**

Çobanyastığı çayı yuxusuzluqdan əziyyət çəkənlər üçün ideal vasitədir, revmatizm, dəri xəstəlikləri, bağırsaq iltihabı kimi xəstəliklərin müalicəsində köməkçi vasitədir. Bununla yanaşı, həmin çayın qəbulu stressi azaldır, mədə ağrısının qarşısını alır, əsəbləri sakitləşdirir, diş əti xəstəlikləri ilə mübarizə aparır, həmçinin ağızіçi iltihabların müalicəsində də qarqara kimi istifadə olunur.

Razyana çayı həzm problemi, mədə ağrısı, qaz və köp kimi narahatlıqlar zamanı istifadə edilə bilər. Xüsusilə süd verən analar üçün həmin çayın qəbulu idealdır, körpədə qaz və köp yaranmasının qarşısını alır.



Gicitkən çayının tərkibində yüksək miqdarda dəmir var. Həzm sisteminin fəaliyyətini yaxşılaşdırır və orqanları təmizləyir, infeksiyaların müalicəsində köməkçi vasitədir, öskürəyə yaxşı təsir edir. Həmçinin immuniteti gücləndirir, soyuqlamanı aradan qaldırır, həzm sistemini normallaşdırır.

Kəklikotunun 350 növü var. Bu çay öskürəyi azaldır, həzm sistemini yaxşılaşdırır, orqanizmi lazımi minerallarla təmin edir. Boğaz ağrısını azaldır, ağızіçi yaraları sağaldır, diş əti xəstəliklərinə qarşı mübarizə aparır, şişkinliyi və stressi azaldır. Xəstəliklərin müalicəsində köməkçi vasitə olaraq istifadə edilən bitki çaylarını mütəxəssislə məsləhətləşmədən istifadə etmək düzgün deyil.

## Qızıl dili olan mumiya?

**Misirdə maraqlı bir hadisə baş verib. İskəndəriyyənin yaxınlığında yerləşən Böyük Taposiris antik şəhər-məbədində aparılan qazıntılar zamanı arxeoloqlar qızıl dili olan qeyri-adi bir mumiya aşkar ediblər.**

Qeyd etmək lazımdır ki, təxminən 2000 yaşı olan mumiya Osiris və İsisə həsr olunmuş məbədlərin yaxınlığında yerləşən 16 dəfndən birində aşkar olunmuşdur.Digər məzarlarda aşkar olunan müxtəlif qədim əsərlər, kitablar və bəzi zinyət əşyaları Misirin Tarixi Abidələr Nazirliyinə təhfil verilmişdir. Əlavə edək ki, bu hadisədən bir müddət öncə məhz bu yerdə arxeoloqlar tərəfindən qızıl sikkələr ilə dolu bir xəzinə aşkar olunmuşdur.Həmin sikkələrin üzərində Kleopatranın şəkili həkk olunmuşdur.

Alimlərin düşüncələrinə görə təzəlikcə aşkar olunan mumiya əslində nitq qusurlu olub. Bəzi alimlər iddia edirlər ki, mərhumun ağzına qızıl dil qoyan insanlar onun sonrakı həyatını düşünərək, danışmasını istəyib. Lakin dilin niyə məhz qızıldan hazırlandığı da hələ də aydın deyil.

Həmçinin qeyd etmək lazımdır ki, çoxsaylı tapıntıların məkanı sayılan qədim şəhər-məbəd Böyük Taposiris Kral II Ptolemeyin əmri ilə təxminən e.ə 280-270-ci illərdə qurulmuşdur. Tədqiqatçıların yaydığı bir versiyaya görə, məlum olub ki, Mark Antoniy və Kleopatra məhz bu şəhərdə dəfn olublar.

*Samirə Tağıyeva*

## Ova cəhd edən şəxs cəzalandırılıb



**Qızılağac Milli Parkının əməkdaşlarının keçirdikləri nəzarət tədbirləri zamanı milli parkın ərazisində ova cəhd edən şəxs saxlanılıb.**

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Səmədova AZƏRTAC-a bildirib ki, araşdırma zamanı brakonyerin Masallı rayonu Köçəkli kənd sakini Muxtar Orucov olduğu məlum olub. Fakta bağlı qanun pozucusu barəsində qanunamüvafiq tədbir görülüb.

## Ozan Kabak "Liverpul"un ən yaxşı oyunçusu seçildi




"Liverpul"un futbol üzrə UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinin "Leypsiq"ə qarşı ilk matçının (2:0) ən yaxşı oyunçusu bəlli olub. Qol.az xəbər verir ki, Mersisayd təmsilçisinin müdafiəçisi Ozan Kabak birinci yeri tutub. Bununla əlaqədar klubun rəsmi Tvitter səhifəsində keçirilən sorğuda Türkiyə millisinin 20 yaşlı futbolçusu hamını qabaqlamağı bacarıb. O, 100 min 641 nəfərin qatıldığı səsvermədə 56 faiz səs toplayıb. Digər namizədlərdən Consa 16, Aleksandr-Arnolda 6, Məhəmməd Salaha isə 22 faiz səs verilib.

## ELAN

Bakı şəhəri, Abşeron rayonu Masazır qəsəbəsində Bağçalı Evlər MTK tərəfindən Bəşirova Çimnaz Həmid qızının adına verilmiş 9/47 int saylı mənzilin maliyyə arayışı və müqaviləsi itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600